# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Leyla Əliyeva Qəbələdə "Gənc arıçı" layihəsinin iştirakçısı ilə görüşüb



3

## 2003-cü il 31 oktyabr: verilən vədlərin reallaşdığı 22 il



8

SƏS
№ 200 (7368)
31 oktyabr 2025-ci il.
Qiyməti 60 qəpik

# Zəngəzur dəhlizinə Azərbaycan nəzarət edəcək









4

## YAP Mərkəzi Aparatında qanvermə aksiyası keçirilib



6

## "Bu, Azərbaycanın gücünü və ədalətini göstərən misilsiz hadisə idi"





7

## Vergi artımı sosial xərclərə necə təsir edəcək?



16

## İrəvan üçün xilas yolu Bakıdan keçir...



7

## Uşaq əməyi: istismar, yoxsa könüllü fədakarlıq?



10

# Ağalıdan başlanan Böyük Qayıdış!

## Prezident İlham Əliyev: "Beş ilə yaxındır ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib və azad olunmuş bütün torpaqlarda geniş quruculuq işləri gedir"



"Bütün Qarabağın, Şərqi Zəngəzurun gələcəyi çox parlaq olacaq. Bugünkü reallıq - qurduğumuz şəhərlər və kəndlər bunu göstərir". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Zəngilan rayonunun Məmmədbəyli və Ağalı kəndlərinin sakinləri ilə görüşü zamanı bildirib. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Tariximizə yazılan Böyük Qaydışın ilk karvanı əzəli torpağımıza yol aldı. 44 günlük Vətən müharibəsində Azərbaycan tarixi ədaləti bərpa edərək, 30 ilə yaxın işğal altında olan torpaqları düşmən tapdığından azad etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə həyata keçirməyə imkan verdi. Azərbaycan Ermənistanın belini qırmaqla öz torpaqlarını düşmən tapdağından azad etdi. XXI əsrin müharibəsini aparan Azərbaycanın hərbi gücü, qüdrəti 44 günlük müharibə zamanında özünü göstərdi. Xatırladaq ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı Zəfər 30 ilə yaxın doğma yurdun həsrətini çəkən keçmiş məcburi köçkün həmvətənlərimizin işğaldan azad edilmiş ərazilərdəki doğma yurd yerlərinə qayıtmasına imkan yaratmış oldu. Köçkünlük həyatı yaşadıqları dövrdə onlar daim dövlətimizin diqqət və qayğısı ilə əhatə olundular. Bu sahədə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin davam etdirdiyi strateji xətt məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına, sosial müdafiəsinin, məşğulluğunun təmin olunmasına istiqamətləndi və ardıcıllıqla həyata keçirilib.

Bu gün "Böyük Qayıdış" konsepsiyasına uyğun olaraq kənd, qəsəbə və şəhərlərimiz abadlaşır. Mərhələli olaraq köç karvanları əzəli torpaqlara çatır. "Bu gün Ağalı və Məmmədbəyli kəndlərinin sakinləri üçün çox sevincli bir gündür. Ağalı kəndində əlavə 100 ailə yerləşəcək. Ağalının hüdudları demək olar ki, daha da böyük olur. Məmmədbəyli kəndində isə 180 ailə üçün gözəl evlər, yaraşıqlı binalar inşa edilib. Mən bilirəm ki, siz bu gün buraya gəlmisiniz. Hələ demək olar ki, yerləşməmisiniz. Ancaq əlbəttə ki, gələn günlər ərzində burada tam yerləşib öz doğma dədə-baba torpağında rahat, firavan həyat yaşayacaqsınız", - deyə Prezident bildirib.

44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olunan ərazilərimizdə bu gün bayram ovqatı, sevinc hökm sürür. Vətən müharibəsinin 24-cü günü - 2020-ci il oktyabrın 20-si hərb tariximizə Zəngilan şəhərinin və ətraf kəndlərin erməni işğalından azad edildiyi gün kimi həkk olunub. Bildiyimiz kimi, birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə etmiş oldu. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirildi. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq quruldu. Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir. Bəli, artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar.

### "BÖYÜK QAYIDIŞ" PROQRAMININ BAŞLANĞICINI DA ZƏNGİLAN RAYONUNDA QOYDUQ"

Prezident İlham Əliyev oktyabrın 28-də Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksində görülmüş işlərlə tanış olub.

12 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 2 hektara yaxındır. Burada 104 mənzil inşa olunub. Binalardan 8-i ikimərtəbəli, 4-ü isə üçmərtəbəlidir. Hazırda binaların daxili bəzək işləri yekunlaşıb. Kompleksdəki binaların inşasında müasir memarlıq yanaşmaları əsas götürülüb. Ərazidə uşaq və idman meydançaları quraşdırılıb. Məhəllədə 6 yerüstü və yeraltı avtomobil dayanacağı var. Elektromobillər üçün enerjidoldurma məntəqəsi də nəzərdə tutulub. Yaşayış kompleksinin ərazisində yeraltı su anbarları tikilib, transformator da quraşdırılıb. Kompleks şəhərin mərkəzi hissəsində, məktəb, uşaq bağçası və parkın yaxınlığında, orta sıxlıqlı və çoxfunksiyalı zonada yerləşir.

"Bu gün "Böyük Qayıdış"ın növbəti mərhələsidir. Bilirsiniz ki, biz "Böyük Qayıdış" Proqramının başlanğıcını da Zəngilan rayonunda qoyduq", - deyən Prezident bildirib ki, birinci kənd - Ağalı kəndində artıq üç il yarımdır ki, insanlar yaşayır və çox gözəl şərait yaradılmışdır və gözəl də saxlanılır: "Mən indi Ağalının içi ilə keçdim və yeni binalarla tanış olarkən gördüm ki, bütün həyətyanı sahələr sanki gözəl bir bağa çevrilib. Biz buranı keçmiş köçkünlərə təhvil verəndə qupquru bir yer idi. Necə ki, indi Məmmədbəyli kəndində də hələ ki, o qədər də çox ağac yoxdur. Ancaq illər keçdikcə vətəndaşlar özləri qurub-yaradırlar, əkib-becərirlər. Dövlət nə lazımdırsa edib, sizi gözəl şəraitlə təmin edib və əminəm ki, siz burada rahat yaşayacaqsınız".

Zəngilan da yeni dövrünə qədəm qoyub. "Ağalı" hoteli Zəngilan şəhər mərkəzindən 20 kilometr məsafədə, Həkəri çayı vasitəsilə yaradılmış süni gölün sahilində yerləşir. Hotelin binası üç mərtəbədən ibarətdir. Birinci mərtəbədə qonaqları foye və rahat gözləmə zonası qarşılayır. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var. Bu ərazilərin turizm potensialının səmərəli istifadəsi, regionun rəqabət qabiliyyətli turizm məkanına çevrilməsi üçün geniş tədbirlər həyata keçirilir. Bu baxımdan Füzuli, Zəngilan və Laçında tikilən beynəlxalq hava limanları azad edilən ərazilərimizin turizm potensialının reallaşmasında, turistlərin cəlb olunmasında mühüm rol oynayacaq.

Əlbəttə ki, işğaldan azad olunan ərazilərimizdə infrastruktur layihələr, yeni yolların çəkilişi, yaşayış yerlərinin təməlinin qoyulması, iaşə müəssisələrinin açılışı və s. plnlı şəkildə layihələr əsasında həyatı keçirilir. Məqsəd insanların rahatlığının və firavanlığının təminatıdır. Artıq Zəngilanda "Zəngilan" və "Şayıflı" Su Elektrik stansiyaları istifadəyə verilib. İşğaldan azad edilən ərazilərdə yaşıl enerji zonasının yaradılması, rayonların karbonsuz zonaya çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Oxçuçayın Zəngilan rayonunun ərazisindən keçən hissəsində hər birinin gücü 10,5 meqavat olmaqla dörd yerdə ümumi gücü 42 meqavat olan "Zəngilan" Su Elektrik stansiyaları silsiləsi layihələndirilərək qısa vaxt ərzində tikilib. İşğaldan azad edilən ərazilərdə ən böyük silsilə su elektrik stansiyası olan Zəngilan silsiləsindən "Cahangirbəyli" SES 2023-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istismara verilib.

Göründüyü kimi, işğal altından azad olunan ərazilərimizdə, eləcə də Zəngilanda abadlıq-quruculuq işələri sürətlə davam etdirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir.

### "BU BÖLGƏ ÇOX ÖNƏMLİ NƏQLİYYAT MƏRKƏZLƏRİNDƏN BİRİNƏ ÇEVRİLƏCƏK"

Dövlət başçımız Zəngilan rayonunun Ağalı kəndinin 2-ci mərhələsinin və Məmmədbəyli kəndinin açılışlarında iştirak edib. Ağalı kəndinin ikinci mərhələsində istifadəyə veriləcək evlərin sayı 103 ədəddir. Bunlar 55-i ikiotaqlı fərdi evlərdən, 3-ü isə üçmərtəbəli 2 bloklu "Townhouse" tipli binalardakı mənzillərdən ibarətdir. 36 ədəd birotaqlı, 12 ədəd isə ikiotaqlı mənzil inşa edilib. Kənddə bütün evlərə kommunikasiya xətləri çəkilib, yaşayış və qeyri-yaşayış binalarının hamısı qazla təmin edilib, evlərdə kombilər quraşdırılıb. Burada ümumi sahəsi 2 hektardan çox olan park salınıb. Park Ağalı və Məmmədbəyli kənd sakinləri, eləcə də qonaqlar üçün açıq istirahət və əyləncə zonası kimi fəaliyyət göstərəcək. Parkın ərazisi 5 funksional zonaya bölünüb. Bu zonalarda uşaqların istirahəti, idman fəaliyyəti və əyləncəsi üçün bütün şərait yaradılıb. Ərazidə müxtəlif ağac və kol bitkiləri əkilib.

### "BU BÖLGƏNİN ÇOX GÖZƏL GƏLƏCƏYİ OLACAQ"

Sonra Prezident İlham Əliyev Məmmədbəyli kəndinin açılışında iştirak edib. Kəndin ümumi sahəsi 51,6 hektardır. Kənddə 188 fərdi ev inşa edilib ki, onlardan 39-u iki, 55-i üç, 55-i dörd və 39-u beşotaqlıdır. Hər bir ev üçün həyətyanı ərazi nəzərə alınaraq hasarlanıb. Evlərdə Günəş panelləri quraşdırılıb, onlar su, işıq, qaz, yüksəksürətli internet şəbəkəsi ilə təmin olunub. Kənddaxili yollar asfaltlanıb. Kənddə çoxfunksiyalı 2 qeyri-yaşayış binası da inşa olunub. İnzibati binalarda, eləcə də keçid və istinad divarlarında zövqlə işlənmiş rəsmlər çəkilib. Bu isə kəndin ümumi görünüşünə əlavə çalarlar qatır. Məmmədbəyli kəndi Ağalı kəndinə çox yaxın məsafədə yerləşdiyindən iqtisadi səmərəliliyin təmin olunması məqsədilə bu kəndləri birləşdirən keçid inşa edilib ki, bu da 360 şagird yerlik Ağalı kənd tam orta məktəbindən, 60 yerlik uşaq bağçasından, Ailə sağlamlıq mər-



kəzindən, məişət xidməti obyektindən, xidmətlər mərkəzindən, aptekdən, bazar kompleksindən və digər qeyri-yaşayış təyinatlı obyektlərdən istifadənin rahatlığını təmin edəcək.

Kənddə yaradılmış şəraitlə tanış olandan sonra dövlətimizin başçısı Məmmədbəyli və Ağalı kəndlərinə köçən sakinlərlə görüşüb, onlara mənzillərin açarlarını təqdim edib. "Beş ilə yaxındır ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib və azad olunmuş bütün torpaqlarda geniş quruculuq işləri gedir, o cümlədən Zəngilan rayonunda. Bu gün Zəngilan şəhərində də birinci yaşayış kompleksinin tikintisi demək olar ki, yekunlaşır. Digər binaların tikintisi, məktəb, xəstəxana. Zəngilan məscidi tikilmişdir, gözəl bir memarlıq əsəridir. Konqres Mərkəzi, Zəngilan Beynəlxalq Hava Limanı. Yəni, bura, bu bölgə çox önəmli nəqliyyat mərkəzlərindən birinə çevriləcək. Həm Zəngəzur dəhlizi, həm Araz dəhlizi buradan keçəcək. Ona görə bu rayonun, bu bölgənin çox gözəl gələcəyi olacaq".

Görülən işlərin məntiqi nəticəsi olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Bu gün isə əzəli sakinlərin səs-sədası, toy-büsat çalğısı Füzulidən, Laçından, Şuşadan eşidilir.

Hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Artıq işğaldan azad olunan ərazilərimizdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri sürətlə davam etdirilir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində keçmiş məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmalarına imkan yaranıb və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür.

*Zümrüd BAYRAMOVA*

# Leyla Əliyeva Qəbələdə "Gənc arıçı" layihəsinin iştirakçısı ilə görüşüb
















Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Qəbələ rayonunda "Gənc arıçı" layihəsinin iştirakçılarından biri olan, Mıxlıqovaq kəndində yaşayan Qafarovlar ailəsinin qonağı olub.

AZƏRTAC xəbər verir ki, görüş zamanı ailə üzvləri ilə səmimi söhbət edilib, onların layihə çərçivəsində qazandıqları təcrübə və gələcək planları ilə yaxından maraqlanılıb. Ailə üzvləri bu layihənin həyata keçirilməsi təşəbbüsünə, eləcə də Leyla Əliyevanın şəxsən ziyarətinə görə səmimi minnətdarlıqlarını bildiriblər.

Məlumat üçün bildirək ki, gənc arıçı Lalə Qafarova ötən il 40 kiloqram, bu il isə 100 kiloqram bal istehsal edib. O, həmçinin Leyla Əliyevanın təşəbbüsü ilə ötən ay Kəlbəcərdə keçirilən Bal Festivalında "Gənc arıçı" layihəsinin iştirakçısı qismində çıxış edərək öz məhsullarını alıcılara təqdim edib.

Qeyd edək ki, 2021-ci ildən başlayaraq IDEA İctimai Birliyinin təşəbbüsü və Azərbaycan Respublikasının Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və "ABAD" publik hüquqi şəxsin tərəfdaşlığı ilə həyata keçirilən "Gənc arıçı" layihəsinin əsas məqsədi regionlarda gənc ailələrin arıçılıq sahəsinə marağını artırmaq, onların məşğulluğunu və ekoloji cəhətdən dayanıqlı kiçik ailə bizneslərini dəstəkləməkdir.



# Mirça Abrudean: Azərbaycan Rumıniyanın strateji tərəfdaşı və etibarlı dostudur

***Rumıniyanın aparıcı xəbər agentlikləri, o cümlədən "Agerpres" milli xəbər agentlikləri, "G4Media" və "Gazeta de Cluj" xəbər portalları yazır ki, Rumıniya Senatının sədri Mirça Abrudean Azərbaycana rəsmi səfər edib.***

Bildirilir ki, səfər çərçivəsində o, Milli Məclisin sədri Sahibə Qafarova ilə görüşüb və iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluğunu ifadə edib. Rumıniya parlamentinin yuxarı palatasının rəhbəri qeyd edib ki, Rumıniya ilə Azərbaycan arasındakı əlaqələr qarşılıqlı etimad və səmimi dostluq prinsiplərinə əsaslanır, həmçinin bu münasibətlər enerji, nəqliyyat və rəqəmsal transformasiya sahələrində konkret layihələrlə möhkəmlənir. M.Abrudean vurğulayıb ki, "Azərbaycan regionda sabitliyin və enerji təhlükəsizliyinin əsas dayaqlarından biridir, Rumıniya isə bu tərəfdaşlığa strateji dəyər verir".

Rumıniya mətbuatı yazır ki, görüş zamanı tərəflər parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsi, təhsil, mədəniyyət və innovasiya sahələrində birgə təşəbbüslərin həyata keçirilməsi barədə razılığa gəliblər. Senat sədri, həmçinin xatırladıb ki, Rumıniya 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olub və bu münasibətlər qarşılıqlı hörmət və inam əsasında formalaşıb. O bildirib ki, Rumıniya Azərbaycana güvənir və bu dostluq gələcək illərdə də strateji tərəfdaşlıq ruhunda davam edəcək.

Rumıniya mediası M.Abrudeanın səfərini iki ölkə arasında diplomatik əlaqələrin 30 illiyinə təsadüf edən və Avropa ilə Qafqaz regionu arasında siyasi və iqtisadi əməkdaşlığın yeni mərhələsini açan mühüm hadisə kimi dəyərləndirib.



# Zəngəzur dəhlizinə Azərbaycan nəzarət edəcək

***Azərbaycan hazırkı dönəmdə dünyanın ən güclü, qüdrətli dövlətlərindən hesab olunur. Elə bir beynəlxalq iqtisadi, sosial layihə yoxdur ki, orada Azərbaycanın imzası, reallaşması üçün rolu olmasın. Azərbaycan dünyada hökm sürən müharibələrin, daxili qarşıdurmaların da aradan qaldırılmasında xüsusi rola malikdir. Bu günlər cəmi 20 ölkənin təmsilçiliyi ilə təşkil olunan Misirin Şarm əl-Şeyx şəhərində Qəzzaya dair ”Sülh sammiti”ndə Azərbaycanın da iştirak etməsi qeyd olunanlara misal ola bilər. Təbii ki, Azərbaycanın dünya miqyasında hesablaşan əsas güc mərkəzinə çevrilməsində Prezident İlham Əliyevin fenomen siyasi biliyə, iqtisadi, sosial savada malik olması mühüm rol oynayır.***

Bu gün bütün dünya liderləri və xalqları Prezident İlham Əliyevin verdiyi sözlərə istisnasız əməl edən, sözü ilə əməlinin üst-üstə düşən, sözünün dəyərli və keçərli olduğunu görən böyük siyasi xadim, dövlət rəhbəri olaraq tanıyır və qəbul edirlər. 2003-cü il prezident seçkiləri ərəfəsi Cənab İlham Əliyev doğma xalqıma müraciət edərək söz vermişdir ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcək və Azərbaycanın ərazi bütövlüyünü qoruyacaq. Vədə əməl olundu.








### ”Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox”

2020-ci il sentyabr ayının 27-dən başlanan Vətən Müharibəsi Azərbaycan Prezidenti, Fateh Sərkərdə, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində qələbə ilə başa çatdı. 2020-ci ilin noyabrın 10-da üçtərəfli bəyannamə ilə Ermənistan təslim olduğunu elan etdi. Ermənistanın diz çöküb, ağ bayraq qaldırmasının əsas səbəblərindən biri də Paşinyanın qısa müddət sonra Ermənistanın da mövcudluğuna son qoyula biləcəyini anlaması olmuşdur. Ona görə də, Paşinyan qorxu və vahimə içində beynəlxalq təşkilatlara, ayrı-ayrı ölkələrin rəhbərlərinə Azərbaycanı dayandırmağı xahiş edir, yalvarırdı. Nəhayət, Şuşanın işğaldan azad edilməsi ilə Ermənistan üzərinə bir sıra öhdəliklər götürdü və bunun fonunda Azərbaycan ordusu Qərbi Azərbaycan ərazilərinə qədər gedib çıxmaq fəaliyyətini müvəqqəti dayandırdı. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: ”Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”. Bu fikirləri ilə Prezident İlham Əliyev bir daha Ulu Öndərimizin siyasətini inamla və qətiyyətlə davam etdirdiyini və Dahi Öndərin ”torpaqlarımızın işğaldan azad edilməsi” vəsiyyətini böyük fəxarət və qürurla yerinə yetirdiyini göstərir. Bu qələbə xalq-iqtidar birliyinin nəticəsidir. Bu, ”Qarabağ Azərbaycandır və nida” deyən Qalib Sərkərdəmizin ”Dəmir yumruq” siyasəti ilə güclü Ordumuzun 44 gün ərzində qazandığı Qələbə Zəferidir. 8 noyabr Zəfər Günü - 44 günlük Vətən müharibəsində Vətən uğrunda canından, qanından keçən igid əsgər və zabitlərimizin şəhidlik zirvəsinə ucaldığı milli qürurumuzun, yenilməzliyimizin nümayiş etdirildiyi gündür. Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev xalqa müraciətdə böyük Qələbəni xalqına bəyan etməkdən böyük fəxarət və qürur hissi duyduğunu deyib: ”Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox”.

### Qərbi Azərbaycana qayıdış Zəngəzur dəhlizinin açılmasından keçir

Artıq heç bir münaqişə, milli problem qalmayıb. Azərbaycan öz gücü və qüdrəti hesabına BMT-nin işğal olunmuş ərazilərin boşaldılmasına dair qəbul etdiyi 4 qətnaməni yerinə yetirib. Böyük quruculuq, abadlıq, təmir -tikinti işlərindən sonra insanlar işğaldan azad edilən ərazilərə qayıdırlar. Bununla da o doğma yurd-yuvalara yeni həyat, yeni nəfəs verirlər. Biz Qalib Sərkərdə, Prezident İlham Əliyevin dediyi kimi əbədi olaraq Xankəndidə, Xocalıda, Şuşada, Ağdərədə, Laçında, Kəlbəcərdə və digər ərazilərdə yaşayacağıq. Əminliklə demək olar ki, Azərbaycanımızın bir parçası olan Zəngəzura da qayıdacağıq. Qətiyyətlə söyləmək olar ki, Qərbi Azərbaycana qayıdıb, orada yeni həyat quracağıq. Hələlik isə Zəngəzur dəhlizinin açılması istiqamətində işlər həyata keçirilir. Əgər Ermənistan üzərinə götürdüyü öhdəliklərə əməl etsə, qısa müddət sonra dəhliz açılacaq və bununla da Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonları arasında əlaqə bərpa olunacaq. Həm də dünyanın əksər ölkələri dəhlizin imkanlarından istifadə etməklə milyardlarla maliyyə vəsaiti qazanmış olacaqlar. Xüsusilə də Türkiyə, Gürcüstan, indiki fars-molla rejimi, Ermənistan, Rusiya, Çin eləcə də Avropa ölkələri, həmçinin Ərəb dövlətləri faydalanacaq. Yəni Zəngəzur dəhlizi Asiya və Avropanın, ümumilikdə az qala bütün dünya ölkələrinin iqtisadiyyatına böyük təsir göstərəcək. Haqlı və əsaslı olaraq Azərbaycan Prezidenti, Fateh Sərkərdə İlham Əliyev Zəngəzur dəhlizinin beynəlxalq əhəmiyyətə malik dəhliz olduğunu bildirib. Prezident İlham Əliyev Çin Xalq Respublikasının ”China Media Group” korporasiyasının müxbiri ilə söhbətində Zəngəzur dəhlizinin üzərində çox fəal iş aparıldığını bildirib: ”Azərbaycandan Türkiyəyə və Avropaya əlavə yol. Azərbaycan ərazisində tikinti işlərinin təxminən 70 faizi artıq tamamlanıb. Beləliklə, təkcə Bakı-Tbilisi-Qars yolu Azərbaycan ərazisindən deyil, Zəngəzur dəhlizindən də keçəcək. həm də işə salınacaq. Bir sözlə bütün bunlar əlavə yüklərin daşınması üçün başqa imkanlar açacaq. Eyni zamanda Azərbaycan ərazisindən, o cümlədən Gürcüstandan da daşımalar dəniz limanından keçəcək. Biz müəyyən investisiyaların qoyulmasın da çox maraqlıyıq. Bu sahədə imkanlar. Həqiqətən də, nəqliyyat sektorunda əməkdaşlıq bütün ölkələr üçün çox faydalı olacaq və eyni zamanda, bu işlərin ölkələr arasında əlaqələrin möhkəmlənməsinə kömək etməsi vacibdir. Ölkələr bir-biri ilə daha sıx bağlı olacaq. İnteqrasiya olacaq, biz dəhliz boyu çoxlu sənayelər yaratmağı planlaşdırırıq və biz sadəcə tranzit ölkə olmaq istəmirik. Geosiyasi baxımdan bu, yaxşı haldır, yeni əlavə gəlir əldə etmək olar, biz Azərbaycanda böyük sənaye zonaları yaratmaq istəyirik. Əslində biz bu istiqamətdə gedirik. Hesab edirəm ki, bu ay açılmış və artıq fəaliyyətə başlayan İnstrumental Azad İqtisadi Zonamızda istehsal da Çin şirkətləri üçün cəlbedici ola bilər. Əslində, bu, təsəvvür etdiyinizdən daha böyük bir fürsətdir”.

### Zəngəzur dəhlizinin açılması ilə irimiqyaslı ticarət dövriyyəsi reallaşacaq

İqtisadçıların gəldiyi qənaətə görə, Zəngəzur dəhlizinin reallaşması ilə Asiyanın, Avropanın, ümumilikdə dünyanın əksər ölkələri gömrük sərhəd-xidmətinə nəzarət etməklə milyardlarla maliyyə vəsaiti qazana biləcəklər. Dost, qardaş ölkə Türkiyə Çin Xalq Respublikasından daşınan malları Türkiyənin şərq vilayətlərinə, oradan da Aralıq dənizi və ya İstanbul boğazları vasitəsilə Avropaya daşınmasını təklif edir. Təbii ki, bu təklifin reallaşması regionun siyasi və strateji mənzərəsini dəyişməklə yanaşı iqtisadi maraqlarının təmin olunmasına imkanlara yaradar. Dəhlizə nəzarəti isə Azərbaycan həyata keçirməlidir. Düzdür ABŞ dəhlizə nəzarət etmək istəyində maraqlıdır. Hətta ərazidə bir sıra işlərin görülməsi və məntəqələrin qurulması üçün ABŞ tərəfinin maliyyə vəsaiti ayırdığı qeyd olunur. Ancaq qonşuluqda yerləşən Rusiya kimi irticaçı dövlət düşmən münasibətində olduğu ABŞ-ın regiona nəhəng layihələri ilə daxil olmasına qarşıdır. Elə fars-molla rejimi də ABŞ-ın Zəngəzur dəhlizinin qurulması və nəzarət etmək istəyinə qarşıdır. Belə olan halda ən əlverişli tərəfdaş böyük iqtisadi, hərbi gücə malik Azərbaycandır. Azərbaycan lazımi vasitələrdən səmərəli istifadə etməklə Zəngəzur dəhlizi vasitəsi ilə istər vətəndaşların, istərsə də dünyanın istənilən nöqtəsindən gələn malların daşınmasını rahat və təhlükəsiz formada keçidini təmin edə bilər. Erməni siyasi dairələri də Zəngəzur dəhlizndə keçidi yalnız Azərbaycanın gücü və imkanlarına uyğun olduğunu qeyd edirlər. Hətta siyasi partiya sədrlərinin iddialarına görə, Ermənistanın baş naziri Nikol Paşinyan da bu məsələdə Azərbaycanın mövqeyini müdafiə edir. ”Ana Ermənistan” blokunun rəhbəri Andranik Tevanyan bildirib ki, Zəngəzur dəhlizinə Azərbaycanın nəzarət etməsi müsbət nəticələr verə bilər: ”Nikol Paşinyan açıq şəkildə eyham vurur ki, Zəngəzur dəhlizinə ruslar deyil, amerikalılar nəzarət edəcək. Əslində, Zəngəzur dəhlizinə Türkiyə və Azərbaycan nəzarət edəcək. Nəzarət əvvəlcə 30-70 faiz nisbətində (Ermənistanın payı otuz faizdir) olacaq, sonra 100 faizlik nəzarət onlara veriləcək. Nikol Paşinyan ”Sülh qovşağı” yox, Turan dəhlizi qurur”.



Proseslərin inkişafına əsasən demək olar ki, Azərbaycan xoşməramlı addımlar ataraq Ermənistanla yükdaşınmalara qoyulan məhdudiyyətləri aradan qaldırıb. Bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə mətbuata bəyanatında Azərbaycanın Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırdığını bildirib. Prezident İlham Əliyev qeyd edib ki, ilk belə tranzit yük Qazaxıstan taxılının Ermənistana daşınması olub: ”Azərbaycan Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırıb və ilk belə tranzit yük Qazaxıstan taxılının Ermənistana daşınmasıdır. Zənnimcə, bu, həm də Azərbaycan ilə Ermənistan arasında sülhün artıq kağız üzərində deyil, praktikada da mövcud olduğunun yaxşı göstəricisidir”.

Birgə mətbuat konfransında Prezident İlham Əliyev onu da bildirib ki, Ermənistandan keçəcək Tramp marşrutu da 2028-ci ilə qədər açıla bilər.

Bütün bunlar bir daha onu deməyə əsas verir ki, Azərbaycan 44 günlük Vətən Müharibəsinin qalibi olmaqla regionda həm də yeni reallıqlar yaratdı. Qələbənin növbəti hissəsi isə heç şübhəsiz ki, Zəngəzur dəhlizinin açılmasıdır. Dəhlizin açılması regionda köklü dəyişikliklərə səbəb olacaq, iqtisadi dirçəlişə mühüm töhfələr verəcək.

***İLHAM ƏLİYEV***

# Kimin sülhü, kimin müharibəsi?

## ABŞ-Çin dialoqunda Ukrayna və Cənubi Qafqazın gələcəyi



***ABŞ-Çin münasibətlərindəki gərginliyin fonunda, Ukrayna-Rusiya müharibəsinin taleyini ABŞ-Çin danışıqları birbaşa və tam şəkildə "həll edəcəyi" qənaətinə gəlmək real deyil. Amma müzakirələrin konteksi və təsiri kifayət qədər əhəmiyyətlidir. Ukrayna prezidenti Volodimir Zelenskiy bildirib ki, ədalətli sülhə çatmaq üçün ABŞ və Çin birgə vasitəçi ola bilər. Çin rəsmi bəyanatlarla göstərir ki, münaqişənin dialoq yolu ilə həllini dəstəkləyir və bütün maraqlı tərəflərin sülh prosesində iştirakını vacib sayır. ABŞ və Rusiya bu ilin əvvəlində Ərəbistan Səudiyyəsində yüksək səviyyəli danışıqlara başlayıblar, bu da müharibənin diplomatik kanallarının tamamilə bağlanmadığını göstərir. ABŞ-Çin arasındakı danışıqların Ukrayna məsələsini də daxil edə bilməsi geosiyasi zəmanətlər baxımından maraqlıdır. Yəni ABŞ-Çin razılaşması Rusiyanı təcrid etməyə, Çini isə dolayısıyla prosesə cəlb etməyə imkan verə bilər.***

### Həddən artıq optimist

Çin hələlik əsas münaqişə tərəfini, Rusiya ilə Ukraynanı danışıqlara tam şəkildə cəlb edib həlledici rol oynamaq istəyi və ya qabiliyyəti baxımından şübhə altındadır. Analitiklər qeyd edirlər ki, Pekinin vasitəçilik rolu real olaraq məhduddur. Ukrayna isə əvvəldən "Ukraynanın iştirakı olmadan danışıqlar nəticə verməz" fikrini vurğulayıb. Rusiya isə əsas məsələlərdə, məsələn, Ukraynanın NATO-ya üzvlüyü, Rusiyanın "strateji təhlükəsizlik zəmanətləri", işğal edilmiş ərazilərin taleyi məsələlərində kompromisə hazır olduğunu açıq-aydın göstərməyib.

Danışıqlarla yanaşı, döyüş meydanındakı real güc balansı hələ də vacib rol oynayır və bu da diplomatik prosesin "gözlədiyimiz" sürətlə getməsinə mane ola bilər. ABŞ-Çin arasında böyük geosiyasi rəqabət var. Bu da onların Ukrayna məsələsində birgə ciddi fəaliyyət göstərməsini çətinləşdirir. Belə ki, ABŞ-Çin danışıqları "potensial olaraq" Ukraynanın taleyində böyük rol oynaya bilər, lakin "həll edəcək" səviyyədə deyil. Başqa sözlə, bu danışıqlar şərtdir, lakin kifayət deyil.

### Rusiyanın taleyi və müharibənin gələcəyi

Rusiya uzunmüddətli müharibə üçün hazırlıq aparıb, həm də sənaye-hərbi imkanlarını aktivləşdirib. Lakin bu, həm də ciddi maliyyə, texnologiya və beynəlxalq təcrid yükü ilə gəlir. Rusiya üçün "döyüş mərhələsindən diplomatik mərhələyə keçid" getdikcə vacib olur. Əgər ABŞ-Çin razılaşması nəticəsində Rusiyanın sanksiyaları azaldılarsa və ya Rusiya "müəyyən" statusu ilə danışıqlara cəlb olunarsa, Moskva üçün nəqliyyatın, borcların və ticarətin yenidən başlanması şansı yaranar. Ancaq bu, Ukraynanın güzəştləri hesabına ola bilər.

Alternativ olaraq, Rusiya uğursuzluq riski ilə, yəni döyüş meydanında proqressin olmaması, beynəlxalq təcridin dərinləşməsi, daxildə legitimlik problemləri ilə üz-üzə qala bilər. Hazırda tam sülh razılaşması yaxın görünmür, danışıqlar və döyüşün paralel aparıldığı sıxışmış mübarizə mərhələsi daha aktualdır. Analitiklərin fikrincə, "danışıqlar davam edəcək, eyni zamanda döyüş də davam edəcəklər". Bir çox ekspert ABŞ-Rusiya danışıqlarında Rusiyanın 2014-dən sonra işğal etdiyi Krım və Donbas kimi bölgələr üçün faktiki statusun tanınması ehtimalının gündəmə gəlməsini qeyd edirlər. Ukrayna üçün böyük problem isə Rusiyanın "strateji təhlükəsizlik zəmanətləri", NATO üzvlüyü və gələcək təhlükəsizlik sistemi necə qurulacaq sualları hələlik açıq qalıb.

Mümkündür ki, ABŞ-Çin razılaşması diplomatik "nöqtə" yaratsın. Lakin bu, Ukrayna üçün "tam bərpa və qalibiyyət" yox, daha çox "uzunmüddətli mübarizə və güclü "status kvo" demək ola bilər. ABŞ-Çin arasında "öncə Ukrayna məsələsi" ətrafında razılıq olmasa, Çin yalnız "giriş" edə bilər, lakin razılaşdırıcı əsas qəbul etməyə bilər. Avropa tərəfi, xüsusilə NATO və Avropa İttifaqı bu danışıqlarda kənarda qalmaqdan narahatdır. ABŞ-Rusiya danışıqlarında Avropa məhz iştirak etmir. Bu isə Ukrayna və Avropa üçün diplomatik riskdir.

Ukrayna üçün ən böyük risk "Ukraynanın iştirakı olmadan" razılaşmanın imzalanmasıdır. Bu, Ukraynanın suverenliyi və ərazi bütövlüyü baxımından ciddi kompromis demək ola bilər. Rusiya üçün isə "müharibəni uzunmüddətli sürdürmək" strategiyası risklidir: iqtisadi maliyyə yükü, müttəfiqlərin dəstəyi zəifləyə bilər. Rusiya-Ukrayna məsələsində çox aktiv görünmək istəyir, amma ABŞ-Çin münasibətlərində ortaya çıxan narahatlıqlar və Qərbin reaksiyası Pekini ehtiyatlı olmağa vadar edir.

Ümumi olaraq, qeyd etmək olar ki, bu proses kritik mərhələdədir, amma həlledici mərhələdə deyil. ABŞ-Çin danışıqları bir sıra "şərtlər"i (rəqabət, müttəfiqlər arasında etimad, Ukraynanın rolu) formalaşdırır. Amma nəticənin necə olacağı, nə vaxt olacağı və kimlər üçün hansı qiymətlərlə olacağı hələ geniş suallar doğurur.

### 3 əsas ssenari

2025-2030 dövrü üçün Ukrayna-Rusiya müharibəsinin və qlobal münasibətlərin mümkün 3 əsas ssenarisini quraq. Bu ssenarilər həm ABŞ-Çin-Rusiya üçbucağı, həm də Avropa və regionun reaksiyalarını nəzərə alır. Birinci ssenari: "Şərti sülh və yeni soyuq müharibə"dir. 2026-cı ilin sonuna qədər ABŞ-Rusiya və Çin arasında danışıqlar nəticəsində "münaqişənin dondurulması" razılaşması əldə olunur.

Ukrayna Krım və Donbasın bir hissəsini faktiki olaraq itirir, amma Qərb tərəfindən güclü təhlükəsizlik zəmanətləri alır. Müharibə dayansa da, sülh imzalanmır. Koreya yarımadasındakı kimi "atəşkəs" rejimi formalaşır. ABŞ və Çin razılaşır ki, Rusiya ilə tam qırılma istəmirlər, iqtisadi əlaqələrin bir hissəsi bərpa olunur. Ukrayna Qərb silahları ilə "güclü müdafiə dövlətinə" çevrilir (İsrail modeli). Avropa İttifaqı Ukraynanı qismən inteqrasiya edir (bazara çıxış, təhlükəsizlik ittifaqları, bərpa fondu). NATO-nun şərq cinahı möhkəmlənir, amma Ukrayna hələ rəsmi üzv olmur.

### Nəticədə...

Ukrayna dövlət olaraq qalır, amma ərazi itkiləri qalır. Rusiya daxildə "qələbə kimi təqdim olunan" sülhlə nəfəs alır, lakin Qərb sanksiyalarının bir hissəsi qalır. ABŞ və Çin rəqabəti davam edir, amma "nəzarətli" formaya düşür. Dünya iki bloklu sistemə oturur - "Yeni Soyuq Müharibə".

İkinci ssenari "Dərinləşən müharibə və regional dağılma"dır. Danışıqlar uğursuz olur, 2026-2027-ci illərdə müharibə yenidən genişlənir. Rusiya Ukraynaya qarşı tam səfərbərlik elan edir, Qərb isə Ukraynaya uzaqmənzilli raketlər və hava qüvvələri verir. Eyni zamanda, Yaxın Şərq və Tayvan böhranları da kəskinləşir. Dünya bir neçə paralel münaqişə ilə üzləşir. Çin ABŞ-ın müdaxilələrinə cavab olaraq Rusiyaya "sakit" hərbi-texnoloji dəstək verir. ABŞ və Avropa yeni sanksiya dalğası yaradır, amma dünya iqtisadiyyatı enerji və ərzaq şokları yaşayır. Rusiya nüvə ritorikasını artırır, lakin faktiki istifadə etmir. Ukrayna Qərb silahları ilə Donbas və Zaporojye istiqamətində əks-hücumlara başlayır.

Nəticədə qlobal iqtisadiyyat 2027-də resessiyaya düşür. Avropada enerji bahalaşır, daxili populizm artır. Rusiya daxilində siyasi və sosial təzyiqlər güclənir; "mərkəzdənqaçma" meylləri mümkündür (məsələn, Tatarıstan, Saxa kimi regionlarda). Ukrayna çox itki versə də, müstəqilliyini qoruyur. Dünya təhlükəsizliyi 1980-ci illərin gərginlik səviyyəsinə qayıdır.

Üçüncü ssenari "Böyük razılaşma və yeni beynəlxalq sistem"dir. 2028-2030 arasında ABŞ və Çin "qlobal sabitlik paktı" imzalayır. Rusiya "strateji neytrallaşdırılmış" dövlətə çevrilir, Ukrayna isə Avropa təhlükəsizlik sisteminə tam inteqrasiya olunur. Müharibə bitir, lakin Rusiya Çinlə dərin iqtisadi asılılıq içində qalır. ABŞ və Çin anlayır ki, davamlı münaqişə onların iqtisadi sabitliyini sarsıdır. Yeni Helsinki bənzəri saziş imzalanır (ABŞ-AB-Rusiya-Çin-Ukrayna). Rusiya ordu xərclərini azaldır, Qərbə qarşı siyasətini yumşaldır. Ukrayna Avropa İttifaqına daxil olur, NATO ilə tam təhlükəsizlik inteqrasiyasına keçir. Çin Qərb bazarlarına yenidən geniş çıxış əldə edir, qarşılığında Rusiyaya təzyiqi artırır.

Nəticədə qlobal sabitlik bərpa olunur, enerji bazarları normallaşır. Ukrayna iqtisadi bərpa dövrünə keçir və Avropanın enerji və kənd təsərrüfatı mərkəzinə çevrilir. Rusiya Çin və Hindistanla sıx bağlı "ikinci dərəcəli güc" kimi qalır. ABŞ və Çin rəqabəti "idarə olunan" formaya keçir, çoxqütblü, lakin sabit sistem yaranır.

### Azərbaycan və Cənubi Qafqaz regionuna təsiri

Qərb və Rusiya arasında sərhədlər "bərkiyir" - yəni təsir zonaları aydınlaşır. Cənubi Qafqaz "neytral tampon zona" kimi qalır, nə Qərb, nə də Rusiya burada böyük eskalasiyaya getmir. Türkiyə və Azərbaycan regional enerji və nəqliyyat qovşağı kimi daha da önəm qazanır (xüsusilə Qərbin Rusiyadan enerji asılılığını azaltmaq istəyi fonunda). Bakı-Tbilisi-Ceyhan (BTC), Cənub Qaz Dəhlizi və Zəngəzur koridoru daha çox strateji dəyər qazanır. Avropa İttifaqı Azərbaycandan qaz və yaşıl enerji idxalını artırır; Azərbaycanın enerji gəlirləri sabit şəkildə yüksəlir. Çin "Orta Dəhliz"ə (Transxəzər marşrutu) daha çox sərmayə qoyur. Azərbaycanın nəqliyyat, logistika və diplomatik balans rolu güclənir.

Təhlükəsizlik nəzəriyyəsindən yanaşsaq Qarabağda status-kvo qorunur, Rusiya ordusunun regiondan çıxması ilə Türkiyə-Azərbaycan tandeminin təsiri getdikcə artır. Gürcüstan Qərbə bir qədər daha çox yaxınlaşır, amma ehtiyatla. Ermənistanın Rusiya ilə əlaqələri zəifləyir, amma hələ tam Qərbə yönəlmir. Azərbaycan diplomatik baxımdan balanslı siyasətini davam etdirir, Qərb-Rusiya-Çin-Türkiyə xəttində çoxqütblü manevr edir. Nəticədə Azərbaycan "sabit inkişaf və geosiyasi qalib" mövqeyinə keçə bilər. Lakin Qərb-Rusiya balansının dəyişməsi Bakıdan daha açıq mövqe tələb edə bilər.

Başqa bir məsələ, uzanan müharibə və qlobal xaos ssenarisidir. Belə ki, müharibə uzanır, Rusiya təzyiq altında qalır, amma regionda sabitliyi qorumağa çalışır. Rusiya Cənubi Qafqazda təsirini itirir güc boşluğu yaranır. İran, Türkiyə və Qərb bu boşluğu doldurmağa çalışır, nəticədə geosiyasi rəqabət və risklər artır. Qlobal enerji böhranı dərinləşir, Azərbaycan qazına və neftinə tələbat artır, lakin enerji qiymətləri dalğalanır. Azərbaycanın gəlirləri qısamüddətli yüksəlsə də, iqtisadi risklər (inflyasiya, bazar qeyri-sabitliyi) artır. Cənub Qaz Dəhlizi üzərində təzyiqlər və rəqabət güclənir (İran, Rusiya, Türkiyə marşrut rəqabəti).

Təhlükəsizlik məsələsinə gəlincə, regionda "proksi toqquşmalar" riski arta bilər. Ermənistan, Qərbin dəstəyi ilə silahlanmağa başlayırsa, Azərbaycan-Türkiyə tandemi ilə yeni balans yaranır. Rusiya təsirini itirdiyi üçün "lokal böhranlar" sərhəd toqquşmaları mümkündür. Gürcüstan isə siyasi baxımdan qeyri-sabit qalır. Nəticədə Azərbaycan üçün iqtisadi mənfəət qısamüddətli, təhlükəsizlik riski isə uzunmüddətli olur. Regionda "sabitlik vakuumu" yaranarsa, daha çox müdafiə və diplomatik xərcə ehtiyac yaranacaq.

Digər tərəfdən böyük razılaşma və yeni beynəlxalq sistem ssenarisi də var. ABŞ və Çin "qlobal sabitlik paktı"na nail olur, Rusiya təcriddən çıxır. Cənubi Qafqaz beynəlxalq əməkdaşlıq zonasına çevrilir. Qərb və Çin Orta Dəhlizdə birgə layihələr reallaşdırır, Bakı bu prosesin əsas mərkəzlərindən biri olur. Azərbaycan yaşıl enerji və tranzit mərkəzi kimi sürətlə inkişaf edir. Qaz ixracı azalsa da, yaşıl enerji, nəqliyyat, logistika və texnologiya sektoru güclənir. Bakı bəlkə də Qara dəniz vasitəsilə Avropaya enerji daşımalarının əsas qovşağına çevrilir. Xarici sərmayə axını bərpa olunur, region iqtisadi cəhətdən "yeni Avropa sərhədi" statusu qazanır.

Türkiyə və Azərbaycan NATO və Çinlə eyni anda əməkdaşlıq imkanları yaradır (çoxqütblü balans). Ermənistanla münasibətlər tam normallaşır, sərhədlər açılır, iqtisadi əlaqələr başlayır. Qafqazda 30 illik münaqişə dövrü faktiki olaraq bitir. Nəticədə Azərbaycan regionun bölgə lideri və strateji körpü rolunu tam formalaşdırır. Risk az, inkişaf potensialı çox yüksək.

*Ardı Səh. 6*

# Kimin sülhü, kimin müharibəsi?

## ABŞ-Çin dialoqunda Ukrayna və Cənubi Qafqazın gələcəyi

Əvvəli Səh. 5

### Trampa meydan oxumaq variantı

Həm Çin, həm də Hindistanın Rusiya neft şirkətlərinə qarşı ABŞ sanksiyalarına məhəl qoymadan Trampa meydan oxumaq variantı var. Görünür, ABŞ prezidenti Donald Tramp Riçard Niksonun "dəli nəzəriyyəsini" rəhbər tutaraq (Güman edilir ki, Nikson xarici tərəfdaşlarını son dərəcə ehtiyatlı davranmağa məcbur etmək üçün onların gözlənilməzliyinə inandırmağa çalışıb - müəllif) Rusiya və Çini əhəmiyyətli güzəştlərə getməyə məcbur etməyə çalışır. Onun Rusiyanın neft nəhəngləri "Rosneft" və "Lukoyl"a qarşı sanksiyalar tətbiq etmək qərarı təkcə Rusiya iqtisadiyyatı üçün deyil, həm də Kreml və Pekin arasında enerji əməkdaşlığı üçün nəticələr verə bilər.

2022-ci ildə Ukraynada münaqişə başlayana qədər Avropa Rusiya neftinin əsas idxalçısı idi. Çin 2017-ci ildən bəri onun ən böyük alıcısına çevrilsə də, bütövlükdə Avropa İttifaqı Moskvanın ən mühüm bazarı olaraq qalır. Bununla belə, Aİ-nin heç bir üzvü Pekinin idxal həcmini ötməyib. Qərbin sanksiyalarının tətbiqindən sonra Moskva neft tədarükünü şərqə yönəldib. Nəticədə, 2025-ci ilə qədər Rusiyanın xam neft ixracının təxminən 47%-i Çin, 38%-i isə Hindistanın payına düşür. Heç kimə sirr deyil ki, Pekin və Nyu-Dehli Rusiya neftinin güzəştli idxalından faydalanır.

Buna görə də təəccüblü deyil ki, Çin dövlət korporasiyaları Rusiya neftinin alışını dayandırıb, Hindistan neftayırma zavodları isə idxalı əhəmiyyətli dərəcədə azaltmağa hazırlaşır. Lakin bu, Pekin və Nyu-Dehlinin Moskva ilə enerji əməkdaşlığını tamamilə dayandırmağı planlaşdırması demək deyil. Belə bir addım onların iqtisadiyyatına mənfi təsir göstərə bilər.

Ölkənin ikinci ən böyük neft emalı zavodu olan Hindistanın "Nayara Energy" şirkətinin artıq Qərbin sanksiyaları altında olduğunu nəzərə alsaq, o, demək olar ki, müxtəlif miqdarda Rusiya neftini almağa davam edəcək. Bu arada, Çinin 2026-cı il üçün qeyri-dövlət kanalları ilə neft idxalı üçün 257 milyon ton kvota təyin etdiyi bildirilir. Bu onu göstərir ki, dövlət şirkətləri Rusiyadan neft almağa davam etməsələr də, Pekinin hələ də özəl neftayırma zavodları vasitəsilə Rusiya neftinin idxalını davam etdirmək və ya hətta artırmaq imkanı var.

2024-cü ildə Çin Rusiyadan rekord həddə - 108,5 milyon ton xam neft idxal edib. Bu, onun müəyyən edilmiş qeyri-dövlət idxal kvotası çərçivəsində satınalmaları daha da genişləndirmək üçün infrastruktura və maddi-texniki imkanlara malik olduğunu nümayiş etdirir. Aydındır ki, bu faktdan xəbərdar olan Donald Tramp Rusiya ilə əməkdaşlığı əhəmiyyətli dərəcədə azaltmaq və hətta tamamilə dayandırmaq üçün Çinə dolayı təzyiq göstərməyə çalışır. Onun tariflərlə bağlı hədələri bu strategiyanın bir hissəsidirmi? Nəzərə alsaq ki, Tramp Rusiya prezidenti Vladimir Putinlə sammitini təxirə salıb və bunun əvəzində Çin prezidenti Si Cinpinlə görüşə diqqət yetirib, onun əsas məqsədinin Rusiya neft şirkətlərinə ABŞ-ın sanksiyalarına əməl etmək müqabilində Pekinlə tarifləri azaltmaq barədə razılığa gəlmək ola bilər.

Bununla belə, ən azı ucuz Rusiya neftinə etibarlı alternativ ortaya çıxana qədər Pekinin belə bir razılaşma ilə razılaşması çətin ki. Pekin "hüquqi əsası olmayan və BMT Təhlükəsizlik Şurası tərəfindən təsdiq edilməyən birtərəfli sanksiyalara qarşı çıxır" və Moskva ilə enerji əlaqələrindən əl çəkməyəcəyini açıq şəkildə bildirir.

Çin İran neftini alarkən istifadə etdiyi strategiyadan istifadə edə bilər. Rəsmi olaraq Çin gömrüyü 2022-ci ilin iyul ayından bəri İrandan heç bir neft daşınması barədə məlumat verməyib. Bununla belə, Vaşinqtonun Tehrana qarşı tətbiq etdiyi sanksiyalara baxmayaraq, Çin İran neftinin ən böyük istehlakçısı olaraq qalır. Müstəqil Çin neft emalı zavodları İran neftini almağa davam edir, baxmayaraq ki, bir çox böyük özəl və dövlət şirkətləri bundan yayınmağa çalışırlar. Çinə gələn İran neftinin böyük hissəsi sanksiyaya məruz qalmış tankerlərdən birbaşa daşınmaq əvəzinə, Fars körfəzindəki və ya Malakka boğazındakı sanksiyalaşdırılmamış tankerlərə ötürülür.

Hindistan digər ölkələrdən nümunə götürüb Rusiya neftini almağa davam edə bilsə də, görünür, Azərbaycan və Nigeriya kimi istehsalçılardan neft almaqla idxalını diversifikasiya etmək qərarına gəlib. Hindistanın hərəkətləri, Çin dövlət şirkətləri tərəfindən Rusiya neftinin idxalını dayandırması ilə birlikdə Rusiya iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

Hesablamalara görə, "Rosneft" və "Lukoyl"un ixracının 5-10% azalması, enerji endirimləri ilə birlikdə Rusiya büdcəsinin gəlirlərinin ayda təxminən 1,5 milyard dollar azalmasına səbəb ola bilər. Eyni zamanda Putin Amerika sanksiyalarının Rusiya iqtisadiyyatına ciddi təsir etməyəcəyini iddia edir. Kremlin Qərbi Ukraynada mümkün atəşkəs üçün ilkin şərt kimi sanksiyaları ləğv etməyə çağırması Moskvanın onların iqtisadi nəticələrindən narahat olduğunu göstərir. Lakin bu, prezident Putinin Trampa güzəştə getməyə hazır olacağı anlamına gəlmir. Putinin Rusiya iqtisadiyyatının dayanıqlılığı ilə bağlı açıqlamasını şərh edən Tramp, "Onun belə düşünməsinə şadam. Altı ay ərzində sizə xəbər verəcəyəm. İşlərin necə olacağını görəcəyik" deyib.

Bu arada, Rusiya çox güman ki, neft ixracatının coğrafiyasını genişləndirməyə çalışacaq. Bu, çətin iş olacaq, çünki az sayda ölkə ABŞ-ın ikinci dərəcəli sanksiyaları ilə üzləşmək riskinə hazırdır. Bu arada, Rusiya siyasətçiləri Çinin neft idxalını azaltmaq istəyinə diqqət yetirməlidirlər. 2025-ci ilin birinci yarısında Rusiya Çinə 49,1 milyon ton neft ixrac edib ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 10,8% azalıb.

Bundan başqa, 2025-ci ilin ilk doqquz ayında Rusiya büdcəsinin neft və qaz satışından əldə etdiyi gəlirlər ötən illə müqayisədə 20% azalıb. Buna görə də Pekin ABŞ sanksiyalarına məhəl qoymamaq qərarına gəlməsə və istər dövlət, istərsə də özəl neftayırma zavodları vasitəsilə Rusiya neftini almağa davam etməsə, Kreml Ukraynada öz iqtisadiyyatını saxlamaqda və strateji məqsədlərinə çatmaqda çətinlik çəkəcək.

**V.VƏLİYEV**

# YAP Mərkəzi Aparatında qanvermə aksiyası keçirilib

***Oktyabrın 30-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və Səhiyyə Nazirliyinin Respublika Qan Bankının birgə təşkilatçılığı ilə qanvermə aksiyası keçirilib.***

Respublika Qan Bankının Mobil şəraitdə qan tədarükü şöbəsinin müdiri Günel Mehdiyeva bildirib ki, aksiyanın məqsədi talassemiya, irsi qan və digər profilli xəstəliklərdən əziyyət çəkən insanlara dəstək verməkdir: "Respublika Qan Bankının əməkdaşları tərəfindən lazımi müayinələr aparılır, yararlı donorlardan qan götürülür. Toplanan qan Respublika Qan Bankının laboratoriya şöbəsində müayinədən keçirildikdən sonra xəstələr üçün istifadə olunacaq".

"Qanvermə həm məsuliyyətli, həm də xeyirxah missiyadır. Qana həmişə ehtiyac var, çünki onu heç bir dərman vasitəsi əvəz edə bilməz. İnsanlar ildə bir neçə dəfə qan verə bilərlər. Ümid edirik ki, belə aksiyalar bundan sonra da davam edəcək", - deyə Respublika Qan Bankının şöbə müdiri əlavə edib.

Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası qanvermə aksiyalarına hər zaman dəstək olur: "Budəfəki təşəbbüsünə görə də Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatına və əməyi keçən hər kəsə təşəkkürümüzü bildiririk". Qeyd edək ki, aksiyada partiyanın Mərkəzi Aparatının əməkdaşları da daxil olmaqla 400-ə yaxın YAP üzvü iştirak edib.











# "Bu, Azərbaycanın gücünü və ədalətini göstərən misilsiz hadisə idi"

"Tarixi Zəfər Azərbaycan xalqının milli dəyərlərə söykənən böyük potensialını və sarsılmaz iradəsini dünyaya nümayiş etdirdi. Bu Qələbə bir daha sübut etdi ki, müstəqillik dövründə Azərbaycan dövlətçilik ənənələrinə sadiq, milli kimliyini qoruyan, vətənpərvər və əzmkar bir nəsil yetişdirib. Məhz bu nəsil iki əsr ərzində həllini tapmayan münaqişəni "Dəmir yumruğ"un qüdrəti ilə cəmi 44 günə həll etdi. BMT tarixində ilk dəfə olaraq qəbul edilmiş qətnamələri işğala məruz qalan dövlət özü hərbi yolla icra etdi. Bu, Azərbaycanın gücünü və ədalətini göstərən misilsiz hadisə idi. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib.

K.Bayramov vurğulayıb ki, İkinci Qarabağ müharibəsi xalqımızın milli həmrəyliyini və birliyini daha da möhkəmləndirdi: "Qəhrəman əsgər və zabitlərimizin göstərdiyi igidlik Ermənistan rəhbərliyini Azərbaycanın hərbi-siyasi qüdrətini qəbul etmək məcburiyyətində qoydu. Cəmi 44 gün ərzində düşmənin ordusu, texnikası və canlı qüvvəsi məhv edildi. Amma məhv edilən yalnız Ermənistanın hərbi gücü deyildi, eyni zamanda, dünya erməniliyinin illərlə bəslənən saxta ideologiyası da iflasa uğradı.

Deputat diqqətə çatdırıb ki, Vətən müharibəsindən ötən dövrdə Zəfər yürüşünün gözlənilən davamı gəldi, Azərbaycanın dövlət suverenliyi tam bərpa olundu. Bu baxımdan son beş il bir çox tarixi hadisələrlə zəngin dövrdür. Beş il əvvəl misilsiz qəhrəmanlıqla tarixə yazılan Zəfərin sədası bu gün azad torpaqlarda quruculuq və yenidən dirçəlişin rəmzinə çevrilib. Qalib Azərbaycanın yeni inkişaf mərhələsi artıq bərpa, inşa və dirçəliş dövrü ilə səciyyələnir. Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı layihələr, müasir şəhər və kəndlərin salınması, sosial-iqtisadi infrastrukturun bərpası dövlətin əsas strateji məqsədinin, Böyük Qayıdışın reallığa çevrildiyini göstərir. Dövlət başçısının qeyd etdiyi kimi, artıq 50 mindən çox insan bu torpaqlarda yaşayır, onların 20 mini öz doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlərdir. Beləliklə, Böyük Qayıdış artıq real sosial-iqtisadi proses kimi həyatımıza daxil olub.




Cəbrayılda fəaliyyət göstərən "Araz Vadisi" sənaye zonası və inşası davam edən Günəş Elektrik Stansiyaları regionun iqtisadi simasını tamamilə yeniləyir. 400 meqavat gücündə bərpaolunan enerji potensialı təkcə bu bölgənin deyil, bütün Azərbaycanın enerji təhlükəsizliyinə strateji dəstək verir. Dövlət başçısının da vurğuladığı kimi, əsas məqsəd azad edilmiş ərazilərdə həm rahat yaşayış, həm də dayanıqlı məşğulluq imkanları yaratmaqdır ki, bu da Böyük Qayıdışın sosial əsaslarını formalaşdırır.

*Səbinə Hüseynli*

# İrəvan üçün xilas yolu Bakıdan keçir...

## Mətləb Salahov: "Paşinyan Ermənistanın "qara gündən" çıxması üçün Ankara və Bakı ilə inteqrasiyanın tək yol olduğunu gözəl bilir"



**"Prezident İlham Əliyevin Azərbaycanın öz ərazisindən Ermənistana malların tranzitinə qoyulan məhdudiyyətləri aradan qaldırmaq barədəki qərarı əslində bütün erməni cəmiyyətinə mühüm və real sülh mesajıdır. Bunun ardınca Nikol Paşinyanın da Azərbaycan istiqamətində yük tranzitinə qoyulan məhdudiyyətlərin aradan qaldırılacağına dair bəyanatı rəsmi İrəvanın Azərbaycan Prezidentinin start verdiyi real sülh addımına cavab dəstəyi kimi də qiymətləndirilə bilər.**

Düzdür, hazırda erməni cəmiyyətinin heç də hamısı Azərbaycanla kommunikasiyaların açılmasına, iki ölkə arasında gediş-gəlişin bərpa edilməsinə ürəkdən əl qaldırmır. Xüsusilə daşnak yuvasına çevrilmiş erməni kilsəsinin insanların dini inanclarını istismar edib yenidən müharibə siyasətini alovlandırmaq cəhdləri diqqətdən yayınmır. Amma ağlı başında olan ermənilər əla anlayır ki, indi ötən əsrin 80-90-cı illəri deyil və hazırda Azərbaycanla əməkdaşlığa nail olmadan batırılmış Ermənistanı dirçəltmək qəliz məsələdir."

Bu barədə SİA-ya şərhində jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, xüsusilə bir sıra mühüm iqtisadi layihələrə və bölgənin logistika prosesinə qoşulmaq üçün İrəvanın Azərbaycana əl uzatmaqdan başqa yolu qalmayıb.

"Əlbəttə, Paşinyan hökuməti artıq hər kəs tərəfindən qəbul edilmiş vacib bir geopolitik reallığı qəbul etməyə məcbur qalıb - bölgədə tranzit, logistika və enerji xəritəsini müəyyən edən əsas müəyyənedici ölkə məhz Azərbaycandır. Rəsmi Bakı ilə sülhə nail olub üfunət iyi verən Ermənistan iqtisadiyyatını xilas etmək, Ermənistanın Türkiyə və Azərbaycanla ticarət dövrüyyəsini milyard dollar civarına yüksəltmək N.Paşinyan hökuməti üçün artıq hədəf kimi elan olunub. Bu barədə Ermənistanın iqtisadiyyat naziri Gevork Papoyan parlamentdə büdcə dinləmələrində açıqca bəyan edib.

Amma ən önəmli proses xarici işlər naziri Ararat Mirzoyanın gələn ilin yazında İrəvanda keçiriləcək Avropa Siyasi Birliyi sammitinə Azərbaycan və Türkiyə Prezidentlərinin dəvət olunmasıdır. Düşünürəm ki, Azərbaycan və Türkiyə liderlərinin İrəvana səfər etmələri inteqrasiya və sülh prosesi üçün olduqca önəmli hadisə sayılacaq. Bu həm də min illərdir erməni cəmiyyətini gənə kimi məhv edən xəstə daşnak streotiplərinə ölümcül zərbə də sayılacaq. Belə ki, gələn ilin yazına qədər N.Paşinyanın Azərbaycana səfər edə biləcəyi də mümkün və real prosesdir. Lakin İrəvan və Bakı arasında yaşanan bu inteqrasiya prosesi həm də real Sülh Müqaviləsinin reallaşması üçün böyük imkanlar yaradır. Əlbəttə, hər şeyi zaman göstərəcək".

*Ayşən Vəli*



# "Yeni yollar və sənaye zonaları bölgənin inkişafını daha da sürətləndirəcək"

"Cənab Prezident İlham Əliyev vaxtaşırı Qarabağa və Şərqi Zəngəzura səfərlər edir. Bu dəfə Cəbrayıl və Zəngilana həyata keçirilən səfərin Zəfər Günü ərəfəsində - zəfərimizin 5-ci ildönümünə sayılı günlər qalmış baş tutması da rəmzi mənaya malikdir". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Elşad Paşasoy deyib.

Siyasi şərhçi sözlərinə belə davam edib: "Beş il öncə Azərbaycanın qəhrəman oğulları Vətən torpaqlarını məhz ona görə azad etdilər ki, bu bölgənin əsl sahibləri tezliklə geri qayıtsınlar və öz ocaqlarını yenidən yandırsınlar. Bunun üçün dövlət tərəfindən sürətli bərpa və quruculuq işləri həyata keçirilir. 2003-cü ildə Prezident seçilən İlham Əliyev yaxın illərdə çadır şəhərciklərinin ləğv olunacağını vəd etmişdi və bu vəd reallığa çevrildi. Qaçqın və məcburi köçkünlərin əksəriyyəti yeni evlərlə təmin olundu. Lakin onların ürəyində bir nisgil qalırdı - doğma yurdlarına qayıtmaq arzusu.

Cəbrayıl sakinlərinə mənzillərin təqdim olunması zamanı Prezident bu hissləri xüsusi vurğuladı. Bu gün artıq həmin insanlar çadır şəhərciklərindən öz doğma yurdlarına - müasir infrastrukturla təmin olunmuş ərazilərə qayıdırlar. Prezidentin Cəbrayıl və Zəngilana səfəri zamanı verdiyi bəyanatlar da gələcəyə böyük ümidlər yaradır. Araz və Zəngəzur dəhlizlərinin üzərində yerləşən bu ərazilərdə iqtisadi potensialın artacağı, insanların həyat şəraitinin yaxşılaşacağı gözlənilir. Artıq bu bölgələr böyük tikinti meydançasına çevrilib. Prezident qeyd etdi ki, Qarabağ və Şərqi Zəngəzurda 50 mindən çox insan yaşayır, onların 20 mini keçmiş məcburi köçkünlərdir. Bölgədə təhsil alan tələbələr, çalışan mütəxəssislər və digər vətəndaşlar da bu inkişafın bir hissəsidir. "Birinci Böyük Qayıdış" proqramına əsasən, 2026-cı ilin sonuna qədər 140 min vətəndaşın öz yurdlarına qayıtması nəzərdə tutulur. Bu, Azərbaycanın öz gücü ilə həyata keçirdiyi Vətən müharibəsi kimi, Böyük Qayıdışın da təkbaşına reallaşdırıldığını göstərir. Erməni vandalizmi nəticəsində dağıdılmış ərazilər bərpa olunur, müasir şəhərlər salınır. 2021-ci ildən bəri bu ərazilərə 19 milyard manatdan çox vəsait ayrılıb. Ağdam-Xankəndi dəmir yolu, yeni yollar və sənaye zonaları bölgənin inkişafını daha da sürətləndirəcək.

# 2003-cü il 31 oktyabr: verilən vədlərin reallaşdığı 22 il

***2003-cü il 31 oktyabrda Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ilk inaqurasiya mərasimi keçirilmişdir. Tarixin 22 illik zamanı sübut etdi ki, İlham Əliyev ölkə Prezidenti seçilərək Heydər Əliyev siyasi kursunu uğurla davam etdirməsi ilə Ümummilli Liderimizin ölkəyə ikinci dəfə rəhbərliyi dövründə Azərbaycanda yaratdığı və inkişafına, müstəqilliyinin əbədiliyinə nail olduğu yeni Azərbaycanın daha böyük tərəqqisinə nail oldu. Ötən 22 ilin əvvəli ilə sonunu bir-birindən çox fərqli mənzərələr birləşdirir. Həm ictimai-siyasi, həm sosial-iqtisadi, xüsusilə də Qarabağ və Şərqi Zəngəzurla bağlı mənzərələrin hər birində əldə olunan yenilik, tərəqqi qürur hissi doğurur.***

Ölkəmizdə ötən 22 il ərzində hərtərəfli inkişafa nail olunub. Bu inkişaf və tərəqqi fonunda torpaqlarımızın işğaldan azad edilməsini xüsusi olaraq vurğulamaq lazımdır. Dövlət başçısının 14 fevral 2024-cü ildə keçirilən andiçmə mərasimində dediyi kimi:"Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik".







Cənab Prezidentin dəyərli fikirlərində bildirdiyi kimi, torpaqlarımızın da işğaldan azad olunmasından sonra, bəli, qarşıda Azərbaycanı yeni bir dövr gözləyir. Yeni dövr isə qarşımıza yeni vəzifələr qoyur. Buna görə də hər birimiz öz sahəmizdə yeni dövrün tələblərinə cavab verəcək dərəcədə çalışmalı, dövlət başçısı ətrafında daha sıx birləşməklə, Azərbaycanın gələcəyini hər zaman xalqının və millətinin mənafeyini düşünən Prezidentimizin görmək istədiyi səviyyəyə çatdırmalıyıq.

## Ötən 22 ildə güclü iqtisadiyyat ən önəmli şərt oldu

Güclü iqtisadiyyat olmadan heç bir inkişafdan söhbət gedə bilməz. 90-cı illərdə torpaqlarımızın işğalı ölkəmizin böhran vəziyyətinə düşmüş iqtisadiyyatı səbəbindən reallaşa bildi. Çünki ordu infrastrukturunun yox dərəcədə olması işğalın əsasını təşkil edirdi. Ölkə vətəndaşlarının həmin illərdə yaşayış səviyyəsinin aşağı olması səhiyyə, təhsil və digər sahələrdə bir çox problemlərlə üzləşməsi ilə nəticələnirdi.

Ötən 21 ili müstəqillik illərinin qızıl dövrü hesab etmək olar. "Güclü iqtisadiyyat ən önəmli şərtdir",-deyən Prezident İlham Əliyevin hakimiyyəti illərində keçirilmiş tədbirlər nəticəsində Azərbaycan iqtisadi inkişaf parametrlərinə görə dünyada lider mövqeyə malik olub.

Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) real ifadədə 3,6 dəfə artıb. 2003-2022-ci illərdə Azərbaycanda ümumi daxili məhsul 7,3 milyard dol-lardan 78,7 milyard dollara yüksəlib. 2003-2023-cü illərdə dövlət büdcəsi-nin xərcləri 1,2 milyard manatdan 36,6 milyard manata çatıb. Strateji valyuta ehtiyatları 2003-cü ildə 1,4 milyard dollardan 2023-cü il oktyabrın 1-nə 66,1 milyard dollara qədər artıb. 2003-2022-ci illərdə ölkə iqtisadiyyatına yatırılan ümumi investisiya həcmi 310,4 milyard dollar təşkil edib. 2003-cü illə müqayisədə 2022-ci ildə yoxsulluq səviyyəsi 44,7 faizdən 5,5 faizə enib, orta aylıq əməkhaqqı 77,4 manatdan 839,4 manata yüksəlib.

Dövlət başçısı iqtisadiyyatın şaxələndirilməsini milli iqtisadiyyat qarşısında əsas çağırış olaraq qoyub və bu istiqamətdə görülən işlər nəticəsində ötən 22 il müddətində qeyri-neft sektoru üzrə ÜDM 3,4 dəfə, dövlət büdcəsinin xərcləri 30 dəfə artıb. Əgər 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3 min 500 manatdan çoxdur. Xarici ticarət dövriyyəsi 10,8 dəfə, o cümlədən, ixrac 16,1 dəfə artıb. 2003-cü illə müqayisədə 2022-ci ildə adambaşına düşən ÜDM 3 dəfəyə yaxın artaraq, 13 min 256 manat təşkil edib.

Aparılan çoxşaxəli iqtisadi siyasət nəticəsində davamlı inkişaf təmin olunub. Birbaşa xarici borcun həcmi azalaraq hazırda ümumi daxili məhsulun 9,3 faizini təşkil edir. Azərbaycanın xarici valyuta ehtiyatları son 22 ildə 47 dəfədən çox artaraq 66 milyard ABŞ dollarını keçib və bu, hazırda birbaşa xarici borcumuzu 10 dəfə üstələyir. Bu dövr ərzində sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onun 190 milyard dolları qeyri-enerji sektoruna yatırılıb. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində son 22 ildə qeyri-neft ixracı 8 dəfədən çox artıb.

Ötən 22 ildə Azərbaycanda qeyri-neft sektorunun davamlı inkişafını reallaşdırmaq, innovativ və yüksək texnologiyalara əsaslanan sənaye müəs-sisələrini qurmaq, bu sahədə sahibkarlığı dəstəkləmək və istehsal sahəsində məşğulluğu artırmaq məqsədilə yüzlərlə istehsal və emal müəssisələri, iri sənaye mərkəzləri, parkları və məhəllələri yaradılıb. Bu dövr ərzində respublika üzrə 51 aqropark yaradılıb.

"Əsrin müqaviləsi" ilə Xəzər hövzəsini xarici investorlar üçün açan, Xəzərlə Qara dəniz və Aralıq dənizini birləşdirəcək enerji infrastrukturunun əsasını qoyan Ulu Öndər Heydər Əliyevin neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində yaranan imkanlar qarşıya qoyulan genişmiqyaslı vəzifələrin tam həcmdə yerinə yetirilməsi üçün mühüm zəmin yaratdı.

2006-cı il iyulun 13-də Heydər Əliyevin adını daşıyan nəhəng Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin açılışı oldu və həmin ilin dekabrın 15-də "Şahdəniz" yatağında ilk qu-yu istismara verildi. Sonrakı illərdə "Ümid", "Babək" və "Abşeron" yataqlarının kəşfi Azərbaycanın böyük qaz ehtiyatlarına sahib olduğunu təsdiq etdi. Bununla da, Azərbaycanın təbii resurslar tarixində yeni bir səhifə açıldı. 2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 20-ci ildönümündə Səngəçalda Cənub Qaz Dəhlizi layihəsinin təməli qoyuldu.

Bakı-Tbilisi-Ceyhan neft kəmərindən sonra, Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP kimi transmilli qaz arteriyaları reallaşdırıldı. Bütün bunlar isə dünyanın enerji xəritəsində yeni mənzərə formalaşdırdı.

Beləliklə, iqtisadiyyatımız inkişaf etdikcə, bu, öz təsirini bütün sahələrdə göstərməyə başladı. Əsasən də ordu quruculuğu sahəsində. Çünki torpaqlarımız işğal altında idi və onların xilası üçün iki yol var idi. Ya torpaqlarımız sülh yolu ilə geri qaytarılmalı idi, ya da hərbi yolla. Danışıqlar vasitəsilə torpaqlarımızın sülh şəraitində xilası üçün illərlə dünya miqyasında işlər aparılsa da, lakin beynəlxalq aləm susdu. Həm də illərlə susdu. Belə olan halda isə dövlətimizin başçısı ikinci yolu-hərb yolunu seçməli oldu. Deməli, biz ikinci yola hazır idik.








## Biz elə Ordu yaratmışıq ki...

Ölkə rəhbəri ötən 22 il ərzində Azərbaycanın müdafiəsini gücləndirməyi əsas diqqət mərkəzində saxlayıb. Dövlət büdcəsində müdafiə xərclərinin əhəmiyyətli çəkisinə xüsusi önəm verib. Bu, ölkəmizin müharibə şəraitində yaşaması, ərazimizin 20 faizdən çox hissəsinin işğal altında olması ilə bağlı olub. Bütün bu qayğı və diqqət nəticəsində müstəqil Azərbaycanın NATO standartlarına cavab verən, şəxsi heyətinin döyüş hazırlığı yüksək olan peşəkar və modern ordusu yaradılıb. Bu ordunun dinamik inkişaf meyllərini isə məhz ölkənin uğurlu daxili və xarici siyasəti, eyni zamanda, dünyada artan nüfuzu şərtləndirib.

Məhz 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi, düşünülmüş siyasəti, qətiyyəti və prinsipiallığı nəticəsində bütün istiqamətlərdə əldə olunan böyük uğurların və qüdrətli silahlı qüvvələrin formalaşmasının məntiqi nəticəsi idi.

2023-cü il sentyabrın 20-də 24 saatdan da az vaxt çəkən lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunun Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisindəki bütün tör-töküntülərini, hərbi infrastrukturunu sıradan çıxardı, hərbi xuntanı ağ bayraq qaldırmağa məcbur etdi.

Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri həm Vətən müharibəsində, həm də lokal antiterror tədbirləri zamanı peşəkarlığını, qarşısına qoyulmuş vəzifələri ən yüksək səviyyədə icra etmək məharətinə malik olduğunu bir daha nümayiş etdirdi.

Dövlətimizin başçısı milli ordumuzun bundan sonra da güclənməsini, daha da müasirləşməsini arzulayır. Ötən andiçmə mərasimindəki çıxışında ordu məsələsinə nəzər salan Prezident İlham Əliyev deyirdi: Hesab edirəm ki, növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri Ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsidir. İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə çox böyük addımlar atıldı və mən müxtəlif vaxtlarda bu məsələ ilə bağlı öz sözlərimi demişdim. Demişdim ki, bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclüdür və cəmi bir neçə saat davam edən antiterror əməliyyatı bunun bariz nümunəsidir.

Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış "Komando" silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. Biz elə Ordu yaratmışıq ki, - bundan sonra da bu işlər davam edəcək, - heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz. Bu günlərdə Ermənistan tərəfindən törədilmiş yeni təxribata dərhal adekvat cavab verildi, düşmən cəzalandırıldı. Bu, bir daha onlara və əsasən onlara ürək-dirək verən, üstümüzə göndərən qüvvələrə siqnal idi ki, bizim qabağımızda heç kim dura bilməz. Ermənistanın nə qədər havadarları olsa da, heç kim bizi dayandıra bilməz. Bizim siyasətimiz beynəlxalq hüquqa əsaslanır. Bizim Ermənistan ərazisinə iddiamız yoxdur, ancaq onlar da öz iddialarını geri döndərməlidirlər. Bizdən əsassız iddialarla şantaj dili ilə danışmaq onlara baha başa gələcək və onu yəqin ki, hər kəs görür. Beləliklə, ordu quruculuğu prosesi davam etdiriləcək. Bizim dövlət büdcəmizdə bu gün də ən böyük xərclər hərbi xərclərdir və hərbi xərclərlə bərabər, Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır.

## Yeni dövr- yeni çağırışlar

Beləliklə, 22 ildə ölkədə yüksək göstəricilərin şahidi olduq. Ən əsası isə Qarabağın və Şərqi Zəngəzur ərazilərinin düşməndən azad olunması İlham Əliyevin Prezident kimi fəaliyyəti dövründə mümkün oldu. Xalq 30 illik mübarizənin sonunda öz tarixi torpaqlarını yenidən qazandı. Soydaşlarımız 30 illik ayrılıqdan sonra doğma yurd-yuvasına qovuşa bildi.

Ölkə iqtisadi cəhətdən yüksəldi, bunun nəticəsində milli ordu təkmilləşdirildi, ölkədə vətəndaşa verilən dəyər amilindən bəhrələnərək əsl vətəndaş cəmiyyəti formalaşdı. Bu cəmiyyət isə vətənpərvər gənclərin formalaşmasına səbəb oldu. Dövlət-xalq birliyi yarandı və bu birlik torpaqlarımızın azad olunması, düşmənin birdəfəlik qovulması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi.

2023-cü il fevral ayının 7-də Azərbaycan xalqı yenidən öz Prezidentini seçdi. Həm də bütöv Azərbaycanda ilk dəfə olaraq Prezident seçkiləri keçirildi. Ölkənin

inkişafı ilə yanaşı, həm də xalqımızın şərəf və namus məsələsini həll edən cənab İlham Əliyev çoxsaylı seçici rəyi ilə yenidən ölkə rəhbəri seçildi.

Beləliklə də yeni bir dövrün başlanğıcı qoyuldu: inkişaf etmiş, torpaqları azad olunmuş ölkə qarşısında yeni bir dövr. Bu dövr dövlət başçısının andiçmə mərasimində də dediyi kimi, başqa bir dövrdür: Bu yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. Əgər əvvəlki dövrdə bizim xarici siyasətimizin əsas istiqaməti Ermənistan-Azərbaycan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ demək olar ki, gündəlikdə durmur. Ona görə xarici siyasətimizin yeni istiqamətləri üstünlük təşkil etməlidir... Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır.

2003-2025-ci illəri əhatə edən 22 ilin ölkənin müstəqilliyinə, sosial-iqtisadi inkişafına, xalqın firavanlığına, vətəndaş rifahına, insan amilinə verdiyi töhfələrdən günlərlə, saatlarla danışmaq olar. Ümumi nəticə olaraq söyləmək olar ki, nə yaxşı ki, 2003-cü ildə dövlətimizin başçısı ilə birlikdə bir yola çıxmışıq. Bu yol bizim üçün uğurlu oldu: tarixin 270 illik axınını dəyişən, müstəqilliyimizi, ərazi bütövlüyümüzü möhkəmləndirən, ölkəmizi dünyaya tanıdan yol.

***Mətanət Məmmədova***

# Xatirələrin SİRRİ: beynimiz keçmişi necə "yenidən yazır"?

***Keçmiş hadisələri olduğu kimi xatırlamırıq, onları hər dəfə yenidən yaradırıq.İnsan yaddaşı həyatımızın görünməz kitabıdır. Biz elə düşünürük ki, yaddaş bir arxivdir - orada keçmiş hadisələr sabit şəkildə saxlanılır və istədiyimiz an "açıb baxa bilərik". Amma elm sübut edib ki, beyin keçmişi olduğu kimi saxlamır - o, hər dəfə xatırladığımızda onu yenidən qurur.***



Bəzən buna görə uşaq vaxtı baş vermiş hadisəni illər sonra tam fərqli xatırlayırıq, bəzən isə heç olmayan xa-







tirələr belə bizə "gerçək" gəlir. Bu fenomenə psixologiyada "xatirələrin rekonstruksiyası" deyilir. Yəni yaddaş sadəcə saxlamaq deyil - yaratmaq prosesidir.

## Yaddaş beynin harasında yaşayır?

Yaddaş tək bir hissədə yerləşmir; o, beynin müxtəlif bölgələrinin ortaq fəaliyyətinin nəticəsidir. Ən əsas rolu hipokamp və prefrontal korteks oynayır. Hipokamp xatirələrin "əsas sxemini" formalaşdırır, prefrontal korteks isə onları məntiqi ardıcıllığa salır. Hər dəfə bir hadisəni xatırladıqda, beyin həmin sinir yollarını yenidən aktivləşdirir. Bu, əslində "keçmişi yenidən yaşamaq" deməkdir.

Neyroloq Elizabeth Loftus yazır ki: "Xatırlamaq - hadisəni yaddaşdan çıxarmaq deyil, onu təzədən qurmaqdır. Hər dəfə xatırladıqca bir az dəyişir".

## Keçmiş niyə dəyişir?

Beyin yaddaşları sabit şəkildə saxlamır; onlar plastik və dinamik xarakter daşıyır. Əgər xatirəni hər dəfə xatırlayanda fərqli emosional vəziyyətdə olsaq, beyin həmin xatirəyə yeni hisslər, detallar əlavə edə bilər. Məsələn, uşaq vaxtı baş verən xoş bir hadisəni illər sonra kədərli dönəmdə xatırlasaq, həmin xatirə "daha soyuq" görünə bilər. Bu, keçmişin dəyişməsi deyil - beynin onu yeni vəziyyətə uyğunlaşdırmasıdır.

## Yalançı xatirələr



## necə yaranır?

Elm sübut edib ki, bəzən insan beyninə heç baş verməmiş hadisələr "xatirə" kimi yerləşə bilər. Məsələn, kiminsə danışdığı bir hadisəni çox eşidəndə, beyin onu sanki "bizim başımıza gəlib" kimi qəbul edə bilir. Bu, "yalançı yaddaş sindromu" adlanır. Elizabeth Loftus-un məşhur təcrübəsində könüllülərə uşaqlıqda "ticarət mərkəzində itdikləri" söylənmişdi. Bir neçə gün sonra iştirakçıların yarısı bu hadisəni əsl xatirə kimi danışmağa başlamışdı. Beyin üçün əsas olan həqiqət deyil, ardıcıl və emosional hekayədir.

## Yaddaşın bioloji mexanizmi

Hər bir xatirə beynin neyronları arasında yaranan yeni rabitədir. Bu rabitələr sinaps adlanır və təkrarlandıqca güclənir. Əgər bir hadisəni çox xatırlayırıqsa, onun sinir yolları daha da möhkəmlənir - nəticədə xatirə "daha real" hiss edilir. Əksinə, xatırlanmadıqca sinapslar zəifləyir və hadisə "silikləşir". Buna görə bəzən köhnə xatirələr bulanıqlaşır, bəzən isə müəyyən bir qoxu, musiqi və ya şəkil onları dərhal canlandırır.

## Dünya nəzəriyyəsinə istinad: Yaddaş və reallıq

Müasir neyroelmin yanaşmasına görə, yaddaş keçmişin pasiv izini deyil, indiki beynin interpretasiyasını əks etdirir. Bu fikir bir çox nəzəriyyələrdə yer alıb. Amerikalı neyropsixoloq Daniel Schacter "Yaddaşın yeddi günahı" kitabında yazır: "Yaddaş reallığı saxlamır, onu davamlı şəkildə yenidən qurur. Bu, həm zəiflik, həm də uyğunlaşma mexanizmidir". Eynşteynin nisbilik nəzəriyyəsinə görə isə zaman kimi keçmiş də dəyişkəndir. Beyin keçmişi dərk etdikcə, onu yenidən formalaşdırır - yəni yaddaş da bir növ "nisbilik qanununa" tabedir.

## Niyə bəzi xatirələr silinmir?

Bəzi hadisələr - xüsusən də güclü emosional təcrübələr - hipokamp tərəfindən amigdala ilə birlikdə emal olunur. Bu, hadisəni daha dərin və qalıcı hala gətirir. Məsələn, ilk sevgi, qəza, müharibə və ya uşaq itkisi kimi hadisələr "emosional iz" buraxır və bu iz bəzən ömür boyu silinmir.

Beyin bu xatirələri qoruyur, çünki onlar təhlükə və ya həyati dərs daşıyır.

Yəni yaddaş yalnız keçmişi saxlamaq üçün deyil, gələcəyi qorumaq üçün də işləyir.

*Günel Fərzəliyeva*



Elçin Bayramlı

# Uşaq əməyi: istismar, yoxsa könüllü fədakarlıq?

***Bəşəriyyətin ağrılı problemlərindən biri də uşaq əməyinin istismar olunmasıdır. Dünyada uşaq əməyinə 200 milyon uşaq cəlb edilib. Onların yarısı təhlükəli işlərlə məşğul olurlar. Əməyi istismar olunan uşaqların istisnasız olaraq hamısı kapitalist ölkələrindədir. Sosialist ölkələrdə uşaq əməyi qəti qadağandır. Xüsusən, yoxsul ölkələrdə uşaq əməyinin istismarı faktlarının yarısı könüllülük əsasdadır. İfrat yoxsul ailələrdə uşaqlar özləri könüllü şəkildə işləməyə başlayır ki ailəsini aclıqdan xilas etsin.***

Azərbaycanda uşaq əməyinin istismarı halları yalnız sosialist respublika dövründə mövcud olmayıb. 90-cı illərdən başlayaraq uşaqların istismar edilməsi halları çoxalıb. Onların da təxminən yarısı sahibsiz uşaqlar idi. Küçələrdə belələrinə tez-tez rast gəlinirdi. Usta sexlərində, səyyar satışda və sair sahələrdə belə faktlar çox idi. Lakin son dövrdə bu halların qarşısı əhəmiyyətli dərəcədə alınıb və artıq belə hallara az rast gəlinir. Bununla belə problem aradan qalxmayıb.

Hazırda uşaq əməyilə bağlı Azərbaycandakı mövcud situasiya çox ziddiyyətlidir. Burada məsələnin 2 tərəfi var. Biri müasir tendensiyalar nəticəsində hazırda uşaqların daha tez fəaliyyətlə məşğul olması, texnologiyaların verdiyi imkanlardan bəhrələnməsi, öz istedadlarını, bacarıqlarını inkişaf etdirməsi, hər hansı bir sənətdə, peşədə, IT işlərində çalışmasıdır. Bu da yol veriləndir- lakin yalnız 9-cu sinfi bitirdikdən sonra. Çünki 9 illik təhsil bizdə məcburidir. Ondan əvvəl uşağı təhsildən yayındırmaq olmaz.

İkinci qrupa isə məcburi səbəbdən və ya zorakı şəkildə əməyə cəlb olunan uşaqlar daxildir. Bu da iki yerə bölünür.

Bunlardan biri uşaq istismarıdır- kimlərsə qəsdən uşaqlardan ucuz işçi qüvvəsi kimi istifadə edir. Xüsusən də sahibsuz uşaqlar dilənçiliyə, səyyar satışlara cəlb olunur. Bu, cinayətdir və qarşısı alınmalıdır.

İkinci tərəf isə könüllü fəaliyyətlə bağlıdır. Bəzi uşaqlar ailəsinin sosial vəziyyətinin ağır olduğunu görərək və ya evdə xəstə valideyni, müalicəyə ehtiyacı olan ailə üzvü varsa, könüllü şəkildə işləyərək ailəsinə kömək etməyə çalışır.Bu uşağın tərəfindən baxanda vicdanlı və əxlaqlı bir davranış sayıla bilər. Amma digər tərəfdən, bu uşaq hüquqlarının pozulmasıdır.

Bu problemin qarşısını almaq üçün həmin ailələrə dövlət tərəfindən sosial yardım paketləri verilməlidir və ya valideynləri işlə təmin edilməlidir. Əgər valideyn xəstədirsə və işləyə bilmirsə, sosial yardımla təmin olunmalıdır ki, uşaq işləməyə məcbur qalmasın. Bu baxımdan dövlət elə bir sosial sistem qurmalıdır ki, uşaqların məcbur səbəbdən könüllü işləməsinə ehtiyac qalmasın, bu mümkün olmasın.

Bir çox kəndlərdə uşaqlar təsərrüfat işlərində kömək edir. Bu da yaxşı haldır - dərsdən yayınmamaq şərti ilə. Uşağın zəhmətə alışdırılması müəyyən yaşdan sonra daha məqsədəuyğundur. Yaradıcı və əlavə fəaliyyətlərlə məşğul ola bilərlər. Məsələn, gün ərzində 2-3 saat hansısa sənət öyrənirsə, bu qəbul ediləndir - dərslərinə mane olmadan.

Bu məsələlərə standart yanaşma olmamalıdır. Əsas məsələ uşaq istismarının qarşısını almaqdır. Əsas prinsip budur: uşaqların zorla, məcburi şəkildə əməyinin istismar olunmaması. Əmək Məcəlləsinə əsasən, 15 yaşdan aşağı uşaqların işləməsi qadağandır.

İkinci istiqamət isə, könüllü şəkildə işləməyə məcbur olan uşaqları buna vadar edən səbəblərin aradan qaldırılmasıdır.

Uşaqpulu burada çox vacibdir. Dünyanın bir çox ölkələrində tətbiq olunur, təəssüf ki, bizdə yoxdur. Uşaqpulunun olması, bu kimi uşaqların- ailəsinə kömək etmək üçün işləməyə məcbur qalanların- həm öz həyatını təmin etməsinə, həm də təhsilini davam etdirməsinə kömək edər. Düzdür, ünvanlı sosial yardım proqramı var və bəzi ailələrə bu yardım verilir. Amma ünvanlı sosial yardımda da problemlər var. Müxtəlif bəhanələrlə çətin vəziyyətdə olan bir çox ailələrə sosial yardım verilmir. Bu səbəbdən uşaqlar ailələrinə kömək etmək üçün öz əməyini istismar etməyə məcbur olur.

Cəmiyyətə gəlincə, əgər cəmiyyət çətin vəziyyətdə olan ailələrin uşaqlarının işləməsindən narahatdırsa, bu ailələrə yardım edə bilər. Qohumlar, qonşular, xeyriyyə cəmiyyətləri, müxtəlif sosial təşkilatlar bu işdə dəstək göstərə bilər. Bundan əlavə, uşaq istismarı ilə qarşılaşdıqda müvafiq orqanlara xəbər verməklə bu cinayətlərin qarşısını almaq mümkündür.

# Torpağı yaşadanlar

Azərbaycan xalqı şəhadətə qovuşan oğullarını heç vaxt unutmur və onlar qəlblərdə bir taxt, yuva qurublar. Qəhrəmanlıq şücaətləri ilə bir evin yox, bir obanın övladına çevrildilər. Qısa ömürlə yüzilliklərə adlarını qovuşdurdular. Minlərlə mübariz oğlu Vətən müharibəsində haqq savaşında şəhid oldular. Bu qəhrəmanlıq tarixidir, 44 günün tarixi. Zirvədən-zirvəyə yüksəldilər, xalqın Zəfər tarixini yazdılar. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi. Artıq Zəfər tariximizə doğru addımlayırıq.Beş.il bundan əvvəl silaha sarılmış oğullar sıldırımlı yolları aşaraq, soyuğa baxmayaraq irəliyə doğru addımlayırdılar. Geri qoyduqları ana, ata, övlad, qarışda isə işğaldan azad olunacaq torpaqlarımız onları gözləyirdi. Minlərlə vətən oğlu torpağımızın hər qarışı uğrunda şəhid oldular. Ən ali bir zirvədə şəhidlik zirvəsində əbədiləşdilər. Heç bir hiss onları məsləklərindən geri döndərmədi.







## ŞƏHADƏTƏ QOVUŞAN RUSLAN FUAD OĞLU

Xalqımızın mərd, igidlərdən biri də noyabr ayının 4-ü Laçının Xanalılar kəndində şəhid olan və şəhid general-mayor Polad Həşimovun yaxın dostu, döyüş yoldaşı olan polkovnik leytenant Tağıyev Ruslan Fuad oğludur. O, 1982-ci ildə iyun ayının 12-də İsmayıllı rayonunun Qubaxəlilli kəndində dünyaya göz açıb. İsmayıllı rayonu 3 saylı orta məktəbdə təhsilini başa vurub. 1999-cu ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olub. 2004-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda "N" saylı hərbi hissədə tabor kəşfiyyat tağım komandiri, 2005-2010-cu illərdə Kəngərli rayonunda "N" saylı hərbi hissədə kəşfiyyat bölük komandiri, 2010-2012-ci illərdə Culfa rayonunda "N" saylı hərbi hissədə kəşfiyyat bölmə rəisi olub. 2012-2014-cü illərdə Ali Hərbi Akademiyada təhsilini davam etdirir. 2014-2017-ci illər arasında Şəmkir rayonu "N" saylı hərbi hissədə kəşfiyyat şöbə rəisinin baş köməkçisi rəisi, 2017-2020-ci illər arasında Müdafiə Nazirliyində müxtəlif vəzifələrdə çalışıb. Vətənə xidməti ərzində bir sıra sertifikatlar, medallar və təşəkkürnamələr ilə təltif olunub. 2019-cu ilin fevral və iyun aylarında ikili razılaşma əsasında Çinin Pekin şəhərində ölkəmizi təmsil edib və hərbi biliklərini artırmaq məqsədilə təhsilini davam etdirib. 2020-ci ilin oktyabrında isə Türkiyəyə doktorantura təhsili almağa yollanacaqdı. Lakin Vətən müharibəsi başlayan zaman övladları olan Fuad, Polad və 3 yaşlı Nurayı həyat yoldaşına əmanət edərək, ezamiyyətə gedirəm, deyir, ailəsi bir neçə gün sonra onun döyüşdə olduğunu öyrənir. Atası ilə söhbəti zamanı bu sözləri deyir: "Sizdən bizə qalan bu yükü övladlarımıza miras qoymamalıyıq".

Həyat yoldaşı dəfələrlə diqqətli, ehtiyatlı olmağı ona tapşırsa da polkovnik-leytenant şəhidlərin heç birindən artıq olmadığını bildirir. Qardaşı Həsən Tağızadənin sözlərinə görə, "Verilən məlumatlara əsasən, onun artilleriya atəşinə tutulan əraziyə tək başına "pikap" tipli nəqliyyat vasitəsilə gedərək şəhidləri, yaralıları, üzvləri qopmuş yaralıları çıxardığını bilirik".

Vətən uğrunda canını fəda edən igid zabitimiz Vətən müharibəsində bir çox strateji yüksəkliklərin alınmasında fəal şəkildə iştirak edir. Füzuli, Zəngilan, Cəbrayıl rayonlarında gedən şiddətli döyüşlərdə iştirak edir, son döyüşü isə Laçının Xanalılar kəndində olur. Döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olur. 38 illik ömrünün 21 ilini vətənə xidmət edir və 21 illik vətənə qüsursuz xidməti ilə bağlı Vətən müharibəsindən əvvəl medal ilə təltif olunur.

## ƏSRLƏRİN YADDAŞINA KÖÇƏNLƏR

Bəli, işğal altında olan torpaqlarımızın azad olunmasında qəhrəmancasına vuruşur. Xocalı faciəsinin, Ağdaban, Başlıbel qətliamlarını yaşamış bir xalqın intiqam, qisas harayı onu rahat buraxmırdı. Mübarizlər yetirən Azərbaycan müqəddəs torpaqlarımızın işğaldan azad olunması yolunda Ali Baş Komandanın əmrini gözləyirdilər. Hamı Prezidentin ətrafında bir yumruq olaraq birləşdilər. Sonu Zəfər olan işıqlı bir yol bizi gözləyirdi. Minlərlə Vətən oğlu şəhid oldu, qazi mərtəbəsinə yüksəldi. Ərənlik, şücaət göstərdilər. Şuşa cəngavərləri, Şuşa qartalları, hər qarışın işğaldan azad olunmasında qanı tökülən oğullar. Qisas aldınız, sizin də qisasınız alındı. Ruhunuz şad olsun, igid Vətən oğlulları, Azərbaycan sizi heç vaxt unutmayacaq. Ruslan Tağıyev! Bu isim, soyad bizlərə qəhrəmanlıq məktəbində bir salnamə yazmış Vətən oğlu haqqında hər şeyi demiş olur.

30 ilə yaxın həsrətlə gözlədiyimiz torpaqlarımız bu gün dirçəlir. O yerlərə yeni nəfəs gəlib. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğullarının şücaəti, mücadiləsi milyonlarla insanlara QƏLƏBƏ sevincini yaşatdı. Bu elə bir gündür ki, zaman-zaman Azərbaycan xalqının torpaq uğrunda savaşını, böyüklüyünü, bütövlüyünü, lazım gələndə bir yumruq olaraq birləşməsini yetişən nəsillərə illər, qərinələr, əsrlər sonra belə təqdim edəcək. Bu qələbədə minlərlə azərbaycanlı gəncin payı var. Azərbaycanın qələbə sorağı dünyaya yayıldı. Zəfər günümüzü yaşadıq. Xalqımız üçün bundan sevincli gün nə ola bilərdi ki? Artıq bu gün tarixiləşdi. Müstəqil Azərbaycan dövlətinin vətənpərvər gəncləri Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması yolunda vuruşdular. Hər qarış torpağın müdafiəsində dayandılar və Şəhid də oldular, qazi də. Azərbaycan tarixi ədaləti bərpa etdi.

Düşmənin üstünə gedən və ona həddini bildirən ruslanların ərənliyi ilə bu gün torpaqlarımız əzəli sakinlərinə qucaq açıb. Bu torpaqlarda yüzlərlə, minlərlə ruslanlar boy atacaq. Qan qoxuyan torpaqlarda ayaq açanlar vətən müqəddəsliyini daha dərindən anlayacaqlar. Biləcəklər ki, bu torpağı əkib-becərmək, qurub-yaratmaq, ona nəfəs verib nəfəs almaq gərəkdir. onu qorumaq gərəkdir. Vətən onlarla qürur duyur. Əsrlərin yaddaşına köçən Ruslanları ilə.

***Nəzakət ƏLƏDDİNQIZI***



## Nədir bu şəhərin günahı?

MƏTANƏT

***Oktyabrın 31-də Dünya Şəhərlər Günü qeyd olunur. Bu gün planetin bütün sakinlərinin 55 faizi şəhərlərdə yaşayır. 2050-ci ilədək planetin əhalisinin 75 faizi şəhərliyə çevriləcək. Mütəxəssislərin hesablamalarına görə şəhər sakinlərinin sayının sürətli artımı sənayeləşdirilmə sahəsində yeni imkanların açılmasını vəd etməklə yanaşı, eyni zamanda qeyri-bərabərliyin artması və ətraf mühitin çirklənməsi ilə nəticələnəcək.***

Bəs bu sahədə Azərbaycanda vəziyyət necədir? Azərbaycanda əhalinin 52,8 faizi şəhərdə, 47,2 faizi isə kənd yerlərində yaşayır. Elə bu qeyri-bərabərlik də artıq illərdir ki, özünü göstərməkdədir. Baxmayaraq ki, gözəl-gözəl şəhərlərimiz var, lakin dünya ölkələrindən fərqli olaraq Azərbaycanda insanlar yalnız bir şəhərə toplaşır-Bakıya. Ona görə də bu şəhərdə artıq insan əlindən nəfəs almaq, tərpənmək mümkün deyil.

Yollarda maşın sıxlığı, siqnal səsi, ictimai nəqliyyatdan camaatın bir-birinin çiynində istifadə etməsi, şəkilərdə iynə atılsa, yerə düşməməsi misalı, parklarda gəzmək imkansızlığı...

Dünya Şəhərlər Günündə illər öncəki Bakını xatırlayıram Bakıda. O vaxt ki insanlar öz kəndindəkəsəyində oturmuşdu. Bakı eşqi başlarına vurmamışdı. O vaxt ki Bakı əsl Bakı idi. Yollarında maşın maşına dayanmırdı. Siqnal səslərini toyda-düyündə eşidirdik. O vaxt ki tədris vaxtı da ictimai nəqliyyat bugünkü qədər sıx olmurdu. Çünki insanlar kəndlərini Bakıdan daha çox sevirdilər. Torpaqlarından qopub onu Bakı ilə əvəz etmək fikrində deyildilər. Əkib-becərir, Bakıda yaşayan övladlarına meyvə-tərəvəz payı göndərirdilər. Özləri də hərdən Bakıya gəzməyə gəlirdilər. Elə ki hamı bakılı olmaq sevdasına düşdü, kəndlər boşaldı, yurdlar yetim qaldı, Bakının da qara günləri başladı. Axı bu şəhər minlərlə insana necə qucaq açsın? Axı o, müəyyən ölçüyə malikdir. Bu ölçüləri genişləndirə, artıra bilmir...

Nə üçün kəndlərimizi tərk edirik? Hamımız şəhərli olmağa çalışırıq? Kəndləri də orada məyus qoyuruq? Gəlib şəhərin ən ucqar yerlərində yaşayıb, "biz Bakıda yaşayırıq",- deyirik. Nə olub ki, kəndlərimizə? Havası, suyu tərtəmiz. Meyvəsi-tərəvəzi bol, təbii...

Nə üçün qapılarımızı bağlı qoyub şəhəri seçirik? XXI əsrin dəbidirmi bu? Əziyyətsiz yaşamağa üstünlük veririk. Mal-heyvandan, əkin-biçindən, toyuq-cücədən qaçıb şəhərdə rahatlıq axtarırıq. Axı onların hər biri gözəl bir təsərrüfat sahəsidir: gəliri, qazancı, zəhməti-sağlamlığı ilə...

Biz şəhərli olmağa can atırıq. Asan, rahat həyat axtarırıq. Lakin əsl gözəlliyi arxamızda qoyub sıxlıq yaratdığımız şəhərə üz tutanda nələrin üzərindən xətt çəkdiyimizi necə, düşünürükmü? Düşünürükmü ki, sağlamlığımıza, əlvida, deyirik. Yurdumuza bağlılığa, əlvida, deyirik. Evi-eşiyimizə, bağ-bağçamıza, buradakı ata-babamız yaşda olan ağaclara, əlvida, deyirik. Onları su ilə sınaqla üz-üzə qoyub tərk edirik...

Gəlirik şəhərə. Gəldikcə də Bakının gözəlliyini əlindən alırıq. İstər-istəməz çirklənir bu şəhər. Sıxlıqdan əziyyət çəkir. Bakı Bakılıqdan çıxır...

Özümüz də sıxlıqdan əziyyət çəkirik bu şəhərdə. İşə gecikirik. Metroda növbəyə düzülürük, marşrut avtobusların 2-3-nü yola salandan sonra birtəhər növbəti gələnə minə bilirik. Marketlərdə kassa qarşısında dəqiqələrlə vaxt itiririk. Tələsirik, lakin küçədə sıxlıqdan yeriyib irəli keçə bilmirik. Parklarda istirahət mümkünsüz olub. Elə bütün bu səbəblərdən də şəhərimiz həddindən artıq çirklidir. Bir sözlə, biz insanlar bu şəhərin qəniminə çevrilmişik. Nədir bu şəhərin günahı?

# Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin şaxələnməsinin Azərbaycan üçün perspektivləri



Rusiyada Cənubi Qafqaz üzrə daha bir nəqliyyat dəhlizinin yaradılmasına başlanıb. Belə ki, Xəzərlə- Qara dəniz arasında Şimali Qafqaz boyunca yeni nəqlaiyyat dəhlizi- dəmiryolu və avtomobil yolları şəbəkəsi formalaşdırılacaq. Bu, Azərbaycan üçün də böyük əhəmiyyətə malik olan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin şaxələnməsi və böyüməsi üçün son dərəcə vacid layihələrdən sayılır.

Şimali Qafqaz Federal Dairəsinin iqtisadi inkişafı üzrə hökumət komissiyası ilə görüşdən sonra Rusiyanın Baş naziri Mixail Mişustin Rusiya Nəqliyyat Nazirliyinə, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi və Rusiya Dəmir Yolları ilə birlikdə Dağıstan, İnquşetiya və Çeçenistan hökumətlərinə təxminən 600 km uzunluğunda Mineralnıye Vodı - Mozdok - Nazran - Qroznı - Mahaçqala - Dərbənd marşrutu boyunca dəmir yolu xidmətinin yaradılması üzərində işləməyi tapşırdı. Bu iş, digər məsələlərlə yanaşı, "layihənin birinci mərhələsi - Sleptsovskaya - Qroznı hissəsində dəmir yolu infrastrukturunun bərpası - 2028-ci ilə qədər 15 milyard rubl məbləğində maliyyələşdirmə mənbələrinin müəyyən edilməsini" tələb edir.

Layihə, bir tərəfdən Dağıstan limanları ilə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin qərbi Xəzər (Rusiya - Azərbaycan) xətti, digər tərəfdən isə əsas Şimali Qafqaz dəmir yolu xətti arasında əlavə dəmir yolu dəhlizinin yaradılmasını nəzərdə tutur. Bu xəttin uzunluğunun təxminən 65%-i Mineralnıye Vodı bölgəsində, Çeçenistanın şimalında və Dağıstanın Xəzər sahili boyunca dəmir yolunun yenidən qurulmasıdır.

**Foto-1. Yeni Şimali Qafqaz - Azərbaycan dəmir yolu dəhlizinin sxemi**




Ümumiyyətlə, yeni magistral Rusiyanın Xəzər bölgəsindən və Azərbaycandan Rusiyanın Qara dəniz limanlarına və Rusiyanın Mərkəzi Avropa bölgəsinin əsas yollarına ən qısa marşrut boyunca əlavə bir çıxış yaradacaq. Bu, Xəzər dənizinin şimal və qismən mərkəzi sektorlarının dayazlaşmasının Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinə təsirini azaldacaq: yeni magistral əvvəllər Dağıstan və Həştərxan bölgəsinin Xəzər limanları üçün planlaşdırılan yüklərinin bir hissəsini qəbul edəcək.

Xəzər dənizinin şimalındakı vəziyyət, Rusiya hökumətinin Olya limanına və Həştərxan limanının bəzi körpülərinə birləşdirən 190 kilometrlik Volqa-Xəzər Gəmiçilik Kanalının (4,2 metrdən 4,5-4,6 metrə qədər) dərinləşdirilməsindən imtina etmək planları ilə də təsdiqlənir. Avqust ayında Baş nazirin müavini Vitali Savelyev Vladimir Putinə müvafiq məktub göndərib. Səbəb, Xəzər dənizinin şimalının və Volqa Deltasının bir hissəsinin dayazlaşması səbəbindən işin dəyəri daim artır və bu da tranzit yüklər də daxil olmaqla, bu limanlarda emal olunan yüklərin həcmini azaldır.

Bu vəziyyət birbaşa olmasa da, dolayı yolla bu bölgədəki dəmir yollarına yük axınlarının yenidən istiqamətləndirilməsinə kömək edir. Buna uyğun olaraq, Rusiya Dəmir Yolları (RJD) 2025-ci ilin iyul ayından 31 dekabr tarixinə qədər Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin (BND) qərbi Xəzər marşrutu boyunca kömür, kimyəvi gübrələr və qara metalların ixrac daşınmalarına 50%-ə qədər tarif endirimləri tətbiq edib. Mövcud məlumata görə, bu endirimlər 2026-cı ildə uzadılacaq. Bu güzəştlər xüsusilə Şimali Qafqaz bölgəsindən və Həştərxan vilayətindən Azərbaycana, daha sonra isə İrana dəmir yolu ilə ixrac yük daşınmalarına yönəlib.

**Foto-2. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi Marşrutları**




Bundan əlavə, Dərbənddən təxminən 25 km cənubda yerləşən Rusiya ilə Azərbaycan arasında Samur-Yalama dəmir yolu hissəsinin tutumu yaxın illərdə artacaq. Dağıstan hökumətinin baş nazirinin müavini Rizvan Qazimaqomedov bildirib ki, Rusiya-Azərbaycan sərhədi yaxınlığında 2023-cü ildən bəri davam edən Samur-II stansiyasının tikintisi 2030-cu ilə qədər başa çatmalıdır. O, bunun hərtərəfli sərhəd dəmir yolu qovşağı olacağını qeyd edib.




Rusiya Dəmir Yollarının məlumatına görə, yeni stansiya Rusiyada Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin qərbi Xəzər hissəsinin ötürmə qabiliyyətini 35 faizədək artıraraq ildə 15 milyon tona çatdıracaq. Yeni Samur-II stansiyasında zəruri dəmir yolu infrastrukturunun yaradılması üçün maliyyələşdirmə 13,7 milyard rubl (175,653 milyon ABŞ dolları) təşkil edir. Bu iş Rusiya ilə həmsərhəd olan Biləcəri-Yalama stansiyası hissəsində Azərbaycan Dəmir Yolları tərəfindən görülən işlər ilə sinxron şəkildə həyata keçirilir.

Rusiyanın Xəzər limanlarına bitişik dəmir yollarının, xüsusən də Azov-Qara dəniz hövzəsindəki dəmir yollarının kifayət qədər tutumlu olması da yeni Mineralnıye Vodı-Mozdok-Qroznı-Mahaçqala-Dərbənd dəmir yolunun lehinədir. Bu, digər məsələlərlə yanaşı, Azod-Qara dəniz hövzəsi ilə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin qərbi Xəzər marşrutu arasında xarici ticarət və tranzit yüklərin dəmir yolu daşınmasının həcmini artıracaq.

"Azov-Qara dəniz hövzəsinin dəniz limanlarına dəmir yolu yanaşmalarının inkişafı" federal layihəsinə əsasən, 2024-cü il üçün yükötürmə qabiliyyəti ildə 125 milyon ton olaraq qiymətləndirilmişdi, Azov-Qara dəniz hövzəsinin dəniz limanlarının yük dövriyyəsi isə 2024-cü ildə 275 milyon tonu keçib. Bu o deməkdir ki, dəmir yolu infrastrukturu dəniz nəqliyyatı üçün maneə yaradır. Nəticədə, Rusiya və beynəlxalq yükdaşıyanlar bu bölgədə logistika risklərini nəzərə almaq məcburiyyətində qalırlar ki, bu da logistika xərclərinin artmasına və limanların rəqabət qabiliyyətinin ümumi azalmasına səbəb olur.

Bundan əlavə, Xəzər-Azov-Qara dəniz regionunda 2030-cu ilə qədər tələb olunan dəmir yolu ötürmə gücü ən azı 200 milyon ton təşkil edir ki, bu da əsasən Azov-Qara dəniz limanının və dəmir yolu şəbəkəsinin 2024-cü ildən başlayaraq Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizində daha fəal iştirakı ilə əlaqədardır.

Rosmorport-un 7 oktyabra olan son məlumatlarına görə, yanvar-avqust aylarında Qara, Azov və Xəzər dənizlərindəki Rusiya limanlarında yük daşımalarının həcminin 170 milyon ton təşkil etməsi 2024-cü ilin eyni dövrü ilə müqayisədə 9,8% azalma deməkdir. Xüsusilə, Novorossiysk, Tuapse, Taqanroq, Azov, Rostov-na-Donu, Taman, Temryuk, Kavkaz, Yeysk, Mahaçqala, Olya və Həştərxan limanlarında Rusiya ixrac taxılının daşımalarının həcmi yarıdan çox azalıb.



Hesab olunur ki, xüsusilə Cənubi və Şimali Qafqaz Federal Dairələri, Rusiya Dəmir Yolları və limanları arasında regionlararası koordinasiya regionun yük bazasını, daşıma qabiliyyətini genişləndirəcək və nəqliyyat axınlarını aydın şəkildə əlaqələndirəcək. Buna uyğun olaraq, yeni Mineralnıye Vodı-Mozdok-Mahaçqala-Dərbənd avtomobil yolu, Şimali Qafqazdakı digər nəqliyyat və logistika təşəbbüsləri bu məsələlərin həllinə yönəlib. Bu, nəticə etibarilə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin təkcə Xəzər dənizinin deyil, həm də Qara dəniz sektorlarının rəqabət qabiliyyətini artıracaq. Hər bir halda, Qafqazda nəqliyyat şəbəkələrinin şaxələnməsi region ölkələrinin bütün istiqamətlərə sürətlə və genişhəcmdə çıxışını təmin edəcək, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində nəhəng logistik imkanlar təqim edəcək. Azərbaycan bu dəhlizlərlə Şimali Qafqaz vasitəsilə eyni zamanda həm şimala (Baltik dənizi və şimali Avropa), həm qərbə (Qara dəniz bölgəsinə və Mərkəzi Avropaya, həm də şimal -şərq bölgələrinə (Şərqi Rusiya-Qazaxstan və s) rahat çıxış əldə edəcək.

**Elçin Bayramlı**

Arti.az

# Ümumdünya Şəhərlər Günü: belə davam etsə...

***Oktyabrın 31-də Dünya Şəhərlər Günü qeyd olunur. Bu gün planetin bütün sakinlərinin 55 faizi şəhərlərdə yaşayır. 2050-ci ilədək planetin əhalisinin 75 faizi şəhərliyə çevriləcəyi gözlənilir. Şəhər sakinlərinin sayının sürətli artımı, həmçinin sənayeləşdirilmə sahəsində yeni imkanların açılmasını vəd edir. Lakin bununla yanaşı, bu şəhərlərin əhalisinin həddən artıq olması, qeyri-bərabərliyin artması və ətraf mühitin çirklənməsi də qaçılmazdır. Azərbaycanda əhalinin 52,8 faizi şəhərdə, 47,2 faizi isə kənd yerlərində yaşayır.***

Əhalisi çox olan şəhərlərdə yaşıl ərazisi çox olan parkların sayı da çox olmalıdır. Çünki yaşıl ərazilər və ağaclar şəhərlərin ağciyərləridir. Ağaclar və yaşıl sahələr karbonu udur və özündə saxlayır, şəhər ərazilərində və ətraflarında iqlim dəyişikliyinin təsirlərini azaltmağa kömək edir, istiləşmənin qarşısını alır. Həmçinin şəhər ərazisində strateji yaşıllıq sahələrinin salınması isti havalarda havanı 8 dərəcəyə qədər soyudur, kondisionerə ehtiyacı 30 faiz azaldır.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bildirir ki, şəhərlərdə adambaşına düşən yaşıllıq sahəsi ən azı 9 kvadratmetr olmalıdır, lakin bu rəqəm 10-15 kvadratmetr olarsa daha idealdır. İnkişaf etmiş ölkələrdə adambaşına orta hesabla 20 kvadratmetr yaşıl sahə düşür. Yerli idarəetmə orqanları planlaşdırma işlərində adambaşına ən azı 15 kvadratmetr yaşıl sahə hədəfləri qoymalıdırlar.









Şəhər sakinləri ağacların daha çox olmasını planlaşdırmalı, meşələşdirmə işlərində ağaclar regional iqlim şəraitinə uyğun və iqlimə davamlı yerli növlər olmalıdır. Yerli idarəetmə orqanları öz şəhərlərində yeni meşə salma sahələri yaratmalıdır.

Həmçinin şəhərlərdə yerli idarəetmə orqanları hər məhəllədə parklar, şəhər içində meşələr, yol və prospektlərdə yaşıllıq zolaqları planlaşdırmalı və həyata keçirməlidir. Prospektlərdəki ayırıcı zolaqlar yaşıl zolaqla əvəz edilməlidir. Dəmiryol vağzallarının, avtovağzalların ətrafı prospektlər, meydanlar və xiyabanlar sürətlə ağaclaşdırılmalıdır. Magistral yol marşrutu üzərindəki yaşıllıqlar, meşələr insanların səyahət zamanı stressini aradan qaldırdığı üçün bu ərazilərdə də yaşıllıq artırılmalıdır.

Ağaclar şəhərin oksigenini, torpağını yaxşılaşdırmağa kömək edir. Yaşıl sahələr şəhərlərin ən mühüm investisiyalarından biridir. Şəhərləri yaşamağa yararlı edən yaşıl ərazilərdir. Şəhərlər meşələrə yaxın salınanda insanlar daha sağlam və xoşbəxt olurlar. Yaşıllıqlar olmadan urbanizasiya olmamalıdır, çünki ağacsız şəhərlər insanları xəstələndirir və onların erkən ölümünə səbəb olur. Şəhərlərdəki ağaclar həm də hava filtri rolunu oynayır, çirkli havanı təmizləyir və nəfəs yolu ilə ağciyərlərə keçən virusların qarşısını alır. Həmçinin ağaclar, avtomobillərdən, fabrik-zavodlardan və digər sənaye sahələrindən atılan zərərli maddələri süzür. Şəhərlərdə ağacların bol olması səs-küyün də qarşısını alır. Meşələr hava ilə yanaşı içməli suyu da qoruyur.

Şəhər ərazilərində və ətrafındakı meşələr suyun filtrlənməsinə və tənzimlənməsinə kömək edir, yüz milyonlarla insanın yüksək keyfiyyətli şirin su təchizatına töhfə verir. Meşələr daşqınların qarşısını alırlar. Şəhərlərdəki yaşıl sahələr yağış sularının torpağa hopmasına və yeraltı su ehtiyatlarında depolanmasına şərait yaradır. Nəzarətlə salınan meşələrdə və sistemli yaşıllaşdırılan şəhərlərdə ağaclar biomüxtəlifliyin qorunmasına və artırılmasına kömək edir, bir çox bitki və heyvanlar üçün yaşayış mühiti, qida və qoruma təmin edir.

Şəhərlərdə və ətraf ərazilərdəki meşələr turizmin inkişafına da töhfə verir, on minlərlə iş yeri yaradır və şəhərin abadlaşdırılması sxemlərini stimullaşdırır, dinamik, enerjili, firavan yaşıl iqtisadiyyat yaradır. Meşələr də daxil olmaqla şəhər yaşıllıqları aktiv və sağlam həyat tərzini təbliğ edir, psixi sağlamlığı yaxşılaşdırır, xəstəliklərin qarşısını alır və insanların sosiallaşmasına şərait yaradır. Araşdırmalar göstərir ki, daha çox yaşıllıq olan ərazilərdə yaşayan insanların psixoloji-mənəvi sağlamlığı daha yaxşıdır.

Şəhərlərdə ağacların bolluğunun, aydın səmanın olmasının və quşların nəğməsinin eşidilməsinin bütün stressi dəf etdiyi, gərginliyi aradan qaldırdığı barədə müxtəlif araşdırmalar da var. Tədqiqatlar göstərir ki, şəhərin yaşıl sahələrinə yaxın yaşamaq yüksək qan təzyiqi və stressi azaltmaqla fiziki və psixi sağlamlığı yaxşılaşdıra bilər.Araşdırmalara görə, meşə sahəsinə yaxın olan, ağacların bol olduğu şəhərlərdə depressiya və stress 42 faiz daha az olur, yerli sakinlərin ümumi psixi sağlamlığı 63 faiz yaxşılaşır. Zorakılıq hadisələri 29 faiz azalır, səhiyyə xərcləri azalır, insanlar təmiz oksigenlə zəngin hava ilə nəfəs aldığı üçün, xüsusilə uşaqlarda piylənmə nisbəti azalır.

Ağaclar PM10, PM2.5 adlandırılan və insan sağlamlığı, xüsusən də uşaqlar və yaşlılar üçün çox təhlükəli olan atmosfer çirkləndiricilərini süzür. Normal böyüklükdə bir ağac havadan 4,5 kq çirkləndirici maddə süzür və ildə 118 lt təzə oksigen istehsal edir. Böyük şəhərlərdə çox yaşanan səs-küylü vəziyyət ağacların sayəsində normallaşdırıla bilər, çünki ağaclar həm də səs-küyün udulmasını həyata keçirir.

Ağaclar immunitet sistemini gücləndirir. Ağaclar çox olanda şəhərin havası qışda mülayim, yayda isə 2-4 dərəcə sərin olur. Biomüxtəliflik qorunur, quşlar, arılar, dələlər, kəpənəklər, böcəklər sığınacaq, yemək və yuva üçün ağaclara güvənir. Dünyadakı meşələr müxtəlif heyvan həyatını təmin edir. İstiliyi və enerji istehlakını azaldır. Bir ağac bir ildə 150 kq karbon qazını ($CO_2$) udur, ildə 2,64 milyon litr təzə oksigen istehsal edir, həmçinin yağış təminatına dəstək olur.

Şəhər daxilindəki ağaclar şəhər infrastrukturunun mühüm tərkib hissələridir deyə bilərik. Çünki onlar havadan zərərli çirkləndiriciləri süzərək effektiv hava filtrasiyası funksiyasını yerinə yetirirlər. Yetkin ağaclar su axınını tənzimləyir və daşqınların qarşısının alınmasında və təbii fəlakət riskinin azaldılmasında mühüm rol oynayır. 50 yaşlı hər bir ağac torpaq eroziyasının qarşısını alır.

Məsələn, yetkin həmişəyaşıl bir ağac ildə 15 min litrdən çox suyu tuta, axıntının qarşısını ala bilər. Buna görə də içməli su şəbəkəsinə, kanalizasiya sisteminə yaxın yerlərdə çinar əkilmir. Əkinçilik və maldarlıq formalaşmamışdan əvvəl dünyanın quru ərazisində meşələrin payı 56 faiz təşkil edirdi. Hazırda bu göstərici 30 faizdən aşağı düşüb, yəni 2 dəfəyə yaxın azalıb.

Hazırda dünya üzrə meşə örtüyünün sahəsi 4 milyard hektardır. Bunun 809 milyon hektarı Rusiyanın, 478 milyon hektarı Braziliyanın, 310 milyon hektarı Kanadanın və 303 milyon hektarı ABŞ-ın payına düşür. Son 200 ildə dünya üzrə meşə ərazilərinin sahəsi 2 dəfədən çox azalıb. Son illərdə dünyanın ən böyük meşə sahələrində (Amazon, Sibir, Avstraliya, Kaliforniya,Türkiyə və s.) baş verən yanğınlarda çox nəhəng meşəlik sahələr məhv oldu.

Getdiikcə planetimizdə yaşıllıq sahələrinin payı azalır ki, bu da çox ciddi ekoloji böhranlara gətirib çıxara bilər. XVIII-XIX əsrlərdə indiki Azərbaycan ərazisinin 35%-i meşə ilə örtülü olub. Hazırda bu göstərici 11 faiz təşkil edir. Bu rəqəm Rusiyada 44%, Latviyada 41%, Gürcüstanda 39% təşkil edir. Müqayisə üçün deyək ki, dünyanın iri şəhərlərində yaşıllıq sahəsi Bakıdan dəfələrlə yüksəkdir. Məsələn Moskvada ərazinin 54, Sinqapurda 47, Vyanada 45 faizi yaşıllıq sahəsidir. Bakıda isə bu göstərici 5 faizdən azdır və bu Bakı əhalisinin sayı ilə müqayisədə faciəvi rəqəmdir.

***Lalə Mehralı***

# Müasir toylarda sağlam seçimlər:
## Orqanik, vegeterian və fitnes menyuların yüksəlişi

***Son illərdə dünyada və Azərbaycanda toy mərasimlərində ənənəvi bol yağlı, ət əsaslı menyuların yerini tədricən daha yüngül, sağlam və balanslı yeməklər tutur. Qonaqların qidalanma vərdişlərindəki dəyişiklik, sağlam həyat tərzinin populyarlaşması və sosial mediada yayılan "fitnes mədəniyyəti" bu tendensiyanın əsas səbəblərindən biridir. Artıq toy menyusu təkcə qonaqlıq süfrəsi deyil, həm də ev sahiblərinin zövqünü, dəyərlərini və sağlamlığa münasibətini əks etdirən bir elementə çevrilib. SİA mövzu ilə bağlı araşdırma aparıb.***



### Dünyada mövcud vəziyyət

Qlobal miqyasda toy sənayesi son onillikdə əhəmiyyətli dəyişikliklərə məruz qalıb.

ABŞ və Avropa ölkələrində toy agentlikləri "green wedding" (yaşıl toy) və "eco-friendly catering" anlayışlarını aktiv təbliğ edir. Bu konseptlərdə menyular daha çox orqanik, yerli fermer məhsullarına əsaslanır, plastik qablaşdırmalardan uzaq durulur.

Skandinaviya ölkələrində və Kanadada vegeterian və vegan menyuların toy süfrəsində xüsusi bölmə kimi təqdim edilməsi artıq adi hal alıb.

Yaponiyada və Cənubi Koreyada fitnes yönümlü menyular - az karbohidratlı, yüksək proteinli yeməklər - cütlüklər tərəfindən "enerji və forma qorumaq" məqsədilə seçilir.

Beynəlxalq statistikalara görə, 2024-cü ildə keçirilən toylarda təxminən 27% cütlük menyuda ən az bir vegan və ya qlütensiz seçim təqdim edib (WeddingWire Global Report, 2024).







Bu dəyişikliklər həm sağlamlığa yönəlmiş həyat tərzinin, həm də ekoloji məsuliyyətin artmasından qaynaqlanır. Qonaqlar arasında qida allergiyası və intoleransların artması da menyuların fərdiləşdirilməsini labüd edir.

### Azərbaycanda vəziyyət və dəyişən trendlər

Ənənəvi Azərbaycan toyu tarixən bolluq, süfrə zənginliyi və ət yeməkləri ilə tanınıb. Lakin son illər bu yanaşmada da dəyişikliklər müşahidə olunur:

Böyük şəhərlərdə fəaliyyət göstərən modern restoran və banket zalları menyularında artıq "fit menyu", "detoks içkilər" və "vegan künc" kimi variantlar təklif edir.

Qadınlar və gənc cütlüklər arasında orqanik və az yağlı yeməklərə maraq artır; xüsusilə paytaxt toylarında qızıl balıq, toyuq file, tərəvəzli risotto və təbii meyvə desertləri ön plana çıxır.

Vegeterian və vegan qonaqlar üçün xüsusi hissələr hazırlanması isə hələ tam yayılmasa da, seçilmiş zallarda tətbiq edilir.

Fitneslə məşğul olan cütlüklər arasında "şəkərsiz tortlar", "proteinə əsaslanan desertlər" və "az kalorili salatlar" trend halına gəlməkdədir.

Eyni zamanda, toyların daha çox "konseptual" xarakter alması (məsələn, təbiət temalı, yay çöl toyu və s.) sağlam menyuların da estetik hissənin bir parçasına çevrilməsinə səbəb olur.

Sağlam qidalanma meyillərinin toy sənayesinə daxil olması həm qida mədəniyyətinin dəyişməsi, həm də sosial statusun göstəricisi kimi dəyərləndirilir. Müasir cütlüklər üçün toy süfrəsi sadəcə qonaq qarşılamaq vasitəsi deyil, həm də öz həyat fəlsəfələrini nümayiş etdirmə formasıdır.

Azərbaycanda bu sahənin gələcək inkişafı üçün:

restoranların orqanik və yerli məhsullarla işləməsi,

menyularda allergen və kalori məlumatlarının göstərilməsi,

peşəkar dietoloq və kulinariya mütəxəssislərinin əməkdaşlığı vacib istiqamətlər sayılır. Beləliklə, sağlamlıq və zövq birləşəndə toy menyusu həm müasir, həm də dəyərlərə sadiq bir tərz yaradır - bu da gələcək illərin toy trendlərinin əsas xəttini müəyyən edir.

***Ayşən Vəli***

---

# "Nar"ın "Çoox Şanslı" lotereyasının ilk avtomobil qalibi sükan arxasında!

***Sərfəli mobil operator "Nar" "Çoox Şanslı" lotereyası çərçivəsində ilk avtomobil sahibi-Zaur Quliyevi təbrik edib və ona"Haval H6 Ultra" avtomobilini təhvil verib. Eyni zamanda, son tirajda daha üç "Nar" abunəçisi - Ülkər İbrahimova, Mövsüm Məmmədov və Xədicə Əliyeva "Xiaomi Redmi Note 14 Pro" smartfonunu udub.***

Xatırladaq ki, "Çoox Şanslı" lotereyası ilin sonuna qədər davam edəcək. Bu müddət ərzində "Nar" abunəçiləri hər gün "Xiaomi Redmi Note 14 Pro", hər həftə "Haval H6 Ultra" və finalda "Li L9 Ultra" avtomobili kimi möhtəşəm hədiyyələr qazanmaq şansı əldə edirlər. Qaliblər tam təsadüfi seçimlə müəyyən olunur və canlı yayımda elan edilir.




Qeyd edək ki, "Çoox Şanslı" lotereyasında iştirak etmək üçün "Nar" abunəçiləri sadəcə balanslarını artıra və ya şans qazandıran şanslıpaketlərdən birini aktivləşdirə bilərlər. Belə ki, 1 AZN-lik şanslı paketə daxil olan 3 şans və 15 şəbəkədaxili danışıq dəqiqəsini *71#YES;

2 AZN-lik şanslı paketə daxil olan 7 şans və 35 şəbəkədaxili danışıq dəqiqəsini *72#YES; 3 AZN-lik şanslı paketə daxil olan 12 şans və 55 şəbəkədaxili danışıq dəqiqəsini isə *73#YES nömrəsini yığaraq aktivləşdirmək mümkündür.Hər balans artımı və ya paket aktivləşdirməsi abunəçiyə əlavə şans qazandırır və qalib olmaq ehtimalını artırır. Abunəçilər topladıqları şansların sayını və iştirak statuslarını "Nar+" tətbiqi və nar.az-veb səhifəsindəki xüsusi lotereya bölməsindən rahatlıqla izləyə bilərlər. Daha ətraflı məlumat üçün:lotereya.nar.az/

Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən "Nar" son 6 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur. Bu uğurun arxasında "Nar"ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir eSimtexnologiyası təqdim edir.

# İnsult: necə qorunmalı?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı "istiqaməti çərçivəsində hazırlanıb*







İnsult beynin qan dövranının kəskin pozulması, yəni, beyni qidalandıran damarlardan bir və ya bir neçəsinin daralması və ya tutulmasıdır. İnsultların təxminən 80%-i beyin damarlarının tıxanması, 20%-i isə beyin qanaması nəticəsində yaranır. Ağır gedişli insultlardan sonra baş -beyin funksiyasının yalnız qismən bərpa olunması müşahidə edilir. İnsulta daha çox şəkərli diabet və ürək-damar xəstəliklərində rast gəlinir. Arterial təzyiqin yüksəlməsi, siqaret çəkmə, artıq çəki, hərəkət məhdudluğu gənc nəsil arasında da insult hallarına səbəb olur. Mütəxəssislərin fikrincə, beynin qan-damar xəstəliklərinin əmələ gəlməsində bir sıra amillərlə yanaşı, fiziki gərginlik və stress də başlıca rol oynayır.





Dünyada yaşlılar arasında hər altı nəfərdən biri beynin qan dövranının kəskin pozulması ilə üzləşir. Onların dörddə üçü işemik, qalanları hemorragik insult keçirənlərdir. Elə həmin il Dünya Səhiyyə Təşkilatı insultu qlobal epidemiya elan edib. Beynəlxalq İnsultla Mübarizə Təşkilatı 2006-cı ilin oktyabrında təsis olunub. Onun 85 ölkədən 3,5 mindən çox fərdi və 60-dan çox kollektiv üzvü var. Təşkilatın təşəbbüsü ilə həmin ildən İnsultla Mübarizə Günü qeyd olunmağa başlayıb. Dünyanın 40 ölkəsində oktyabrın 29-u Ümumdünya İnsultla Mübarizə Günü kimi qeyd olunur. Həmin təqvim günü keçirilən bütün tədbirlərin hədəfi diqqəti xəstəliklə əlaqədar ölüm faizinə və insult xəbərdarlığına yönəltməkdir. Təəssüf ki, çox vaxt nə xəstələr, nə də onların ətrafındakılar xəstəliyin əlamətlərini hiss etmirlər.

Ağıza nəzarəti itirmək, dodaqların əyilməsi və ya yerini dəyişməsi, qollarda və ayaqlarda birtərəfli uyuşma, cüt görmə, görmə qabiliyyətinin itirilməsi, bulanıq görmə, göz qapaqlarının hərəkətinin itirilməsi, udma problemləri və oxşar simptomlar müşahidə edilirsə insult ehtimalı var. Qismən insult olan insanlarda insulta məruz qalmamış göz düz, məruz qalan göz isə yana və ya aşağıya baxır. Təsirə məruz qalan göz yuxarı və ya aşağı hərəkət edə bilmir və ya hərəkəti məhduddur.Göz bəbəyi normal və ya genişlənmiş ola bilər və işığa məruz qaldıqda sağlam göz kimi kiçilmir.



İnsult xəstələrinin tam sağalma şansı insultun gücündən, beyin zədələnməsinin yerindən, xəstənin yaşından, ümumi sağlamlığından və tətbiq olunan müalicələrdən asılıdır. Təəssüf ki, bəzi insult xəstələri tam sağalmır. Bəzən insult keçici ola bilir, bunu keçici işemik tutma və ya "mini-insult" olaraq adlandırırlar. Simptomlar adətən 5-10 dəqiqədən az davam edir və heç bir müalicə olmadan öz-özünə keçir. İnsult xəstəsi bir il ərzində qismən və ya tam sağala bilər. Bir ildən çox davam edən simptomlar sağalmanın daha yavaş olmasına səbəb ola bilər. İlk insult keçirən bir insanın sonrakı illərdə başqalarına nisbətən daha çox insult keçirmə riski daha yüksəkdir. İnsult keçirən insanların təxminən 15-30 faizi insultdan sonrakı yaxın dövrdə və ya üç il ərzində ölür. İnsult keçirib sağ qalanların təxminən 70 faizi uzun yaşayır.





İnsultun psixoloji gərginlikdən ola bilmə ehtimalı da istisna edilmir. Ümumiyyətlə, insultun meydana gəlməsində həm psixologiya, həm də fiziologiya iştirak edir. Uzun müddət davam edən depressiya və ya davamlı stress qan təzyiqinin artmasına, qan damarlarının daralmasına və qan axınının pozulmasına səbəb ola bilər ki, nəticədə insult meydana çıxar. İnsultların 80%-i tıxanma nəticəsində, 15%-i isə qanaxma ilə nəticələnir. İnsult sürətli müdaxilə tələb edən xəstəlikdir və ilk 4-5 saat insult müalicəsində çox vacibdir.

Qan təzyiqini nəzarətdə saxlamaq insult riskinin 35-45%-nin qarşısını ala bilər. Elmi araşdırmalara görə, insultdan qorunmaq üçün qan təzyiqi 140/90-dan aşağı saxlanılmalıdır. Siqaret çəkmək siqaret çəkməyənlərlə müqayisədə insult riskini ikiqat artırır. Stress və qəfil gərginlik bədənin immun sisteminə mənfi təsir göstərir. Yaş saçlarla çölə çıxmaq, qəfil temperatur dəyişiklikləri və hətta qripdən qaynaqlanan soyuqdəymə üz iflicinin potensial səbəbləri ola bilər.

Bir çox insult xəstəsinə B vitamini əlavələri tövsiyə olunur. Dərmanlarla yanaşı, masaj və üz hərəkətləri məşqləri, məsələn, şar üfürmək, saqqız çeynəmək və fit çalmaq müalicə zamanı üz əzələlərinin atrofiyasının qarşısını almaqda olduqca faydalıdır. Oktyabrın 29-u Ümumdünya İnsultla Mübarizə Günü kimi qeyd olundu, mübarizənizi öz sağlamlığınızın qeydinə qalmaqla başlayın.

***Lalə Mehralı***

SON SƏHİFƏ

SƏS

31 oktyabr
2025-ci il

# “Erkən nikahlar cəmiyyətin gələcəyinə yönəlmiş təhlükədir”





*SOSİOLOQ FİKRİ*

”Son illər Azərbaycan ziyalıları, intellektualları və ictimaiyyət nümayəndələri erkən nikahlarla bağlı cəmiyyətdə yaranan dərin fəsadlara qarşı açıq mövqe sergiləməyə başlayıblar. Erkən nikahlar, xüsusilə də 23-25 yaşdan aşağı yaşlarda qız və oğlanların evləndirilməsi həm fərdi, həm də ictimai baxımdan ciddi nəticələr doğurur”. Bu sözləri SİA-ya açıqlamasında yazıçı-kulturoloq, sosioloq Aydınxan Əbilov deyib. O bildirib ki, belə nikahlar gənclərin təhsil, inkişaf və şəxsiyyət formalaşması imkanlarını əlindən alır: ”Qızların erkən yaşda ailə həyatı qurması onların fiziki və psixoloji baxımdan hazır olmaması ilə yanaşı, gələcəkdə sağlamlıq problemləri və sosial çatışmazlıqlara səbəb olur. Bu cür nikahlar həm də məcburi xarakter daşıyır və çox vaxt qız uşaqlarının gələcəyi valideynlərin qərarları ilə müəyyən olunur.

Cəmiyyətin sosial media, iqtisadi vəziyyət, ”qız evdə qalmasın” düşüncəsi kimi bəhanələri erkən nikahların qarşısını almaqda əngəl yaradır. Nəticədə erkən nikah qurbanları arasında hamiləlik zamanı həyatını itirənlər, zorakılığa məruz qalanlar, psixoloji travma yaşayanlar artır. Belə ailələrdə çox vaxt boşanma baş verir, aliment, uşaq hüquqları, ev bölgüsü kimi ciddi mübahisələr yaranır. Bəzən uşaqlar sığınacaqlara verilir və ya valideyn himayəsindən məhrum qalır. Digər bir təhlükə isə erkən nikahların gələcəkdə yenidən ailə qurmaq imkanlarını məhdudlaşdırmasıdır. Bu şəxslər çox vaxt ikinci nikaha girməyə risk etmir və bu da cəmiyyətdə tək valideynli ailələrin artmasına, demoqrafik və sosial problemlərin dərinləşməsinə səbəb olur.

Problemin həlli yolu isə erkən nikahlara hüquqi məhdudiyyətlər, təhsil imkanlarının artırılması, ictimai marifləndirmə və gənc ailələr üçün dövlət dəstəyinin gücləndirilməsindədir”.

***Səbinə Hüseynli***

## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## ”Nar”a yeni baş icraçı direktor təyin olundu




27 oktyabr 2025-ci il tarixində Özgür Genc ”Azerfon” MMC-nin (”Nar” ticarət nişanı) baş icraçı direktoru vəzifəsinə təyin olunub. Özgür Genc İKT və şəbəkə texnologiyaları da daxil olmaqla, telekommunikasiya sahəsində 25 ildən çox zəngin təcrübəyə malikdir. O, Azərbaycanın ”Azerconnect Group”, Türkiyənin ”Turkcell” və Ukraynanın ”Lifecell” kimi nüfuzlu İKT və telekommunikasiya şirkətlərində müxtəlif rəhbər vəzifələrdə çalışaraq uğurlu texnologiya strategiyalarının formalaşdırılması, innovasiyaların tətbiqi prosesinə mühüm töhfələr verib.

Özgür Genc Türkiyənin Yıldız Texniki Universitetinin Elektrik və elektronika fakültəsini bitirib. O, həmçinin İsveçrənin nüfuzlu ”IMD” Biznes Məktəbində ”Rəqəmsal Transformasiya və Gələcəyin İdarə olunması” proqramını müvəffəqiyyətlə bitirib. Özgür Genc ”Azerfon” MMC (”Nar”) şirkətinin baş icraçı direktoru vəzifəsində Qunnar Panke ni əvəz edib. Qunnar Panke karyerasında yeni imkanları dəyərləndirmək məqsədilə şirkətdən ayrılıb.

# Vergi artımı sosial xərclərə necə təsir edəcək?

*İQTİSADÇI AÇIQLADI*



***Son vaxtlar ölkədə bəzi vergi dərəcələrinin artırılması barədə müzakirələr cəmiyyətin diqqət mərkəzinə çevrilib. Maraqlıdır, bu addım dövlət büdcəsinə əlavə gəlir qazandırmaqla yanaşı, sosial sahəyə, xüsusilə pensiya və təqaüdlərin artırılmasına yönələ bilərmi? Vergi artımı sosial xərclərə necə təsir edə bilər? Bu addım iqtisadiyyat üçün hansı riskləri yarada bilər?***

Məsələ ilə bağlı iqtisadçı Vüqar Bayramov SİA-ya açıqlamasında bildirib ki, əslində burada söhbət birbaşa vergi dərəcələrinin artırılmasından yox, müəyyən dövr üçün tətbiq edilmiş vergi güzəştinin başa çatmasından gedir. Onun sözlərinə görə, qeyri-dövlət və qeyri-neft sektorunda çalışan vətəndaşlar üçün gəlir vergisinə tətbiq edilən 7 illik güzəşt müddəti artıq sona çatır: ”Bu səbəbdən, həmin sektor üzrə vergi dərəcələri yenidən qüvvəyə minəcək. Yeni mexanizmə əsasən, aylıq gəliri 2500 manata qədər olan əməkdaşlardan 3 faiz gəlir vergisi tutulması nəzərdə tutulur. Bu dəyişikliklər sosial istiqamətlərin maliyyələşdirilməsində, o cümlədən pensiyaların, təqaüdlərin və sosial yardımların artırılmasında mühüm rol oynaya bilər. Dövlətin əsas məqsədi sosial rifahın yüksəldilməsi, vətəndaşların gəlirlərinin sabitliyinin qorunmasıdır.

Vergi güzəştlərinin tədricən aradan qaldırılması iqtisadiyyatın kölgə sektorunu azaldaraq şəffaflığı artıra bilər. Lakin eyni zamanda bu proses sosial sabitliyi qorumaq məqsədilə mərhələli şəkildə həyata keçirilməli, xüsusilə aztəminatlı əhali qruplarının müdafiəsi üçün kompensasiya mexanizmləri işlənməlidir. Vergi dərəcələrinin tənzimlənməsi yalnız büdcə gəlirlərini artırmaq deyil, həm də iqtisadi sabitliyin və sosial balansın qorunması baxımından strateji əhəmiyyət daşıyır”.

***Arzu Qurbanlı***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**